# ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ 24 MAY 2026-Cİ İL TARİXİNDƏ 3-CÜ İXTİSAS QRUPU ÜZRƏ KEÇİRİLƏN QƏBUL İMTAHANINDA İSTİFADƏ OLUNAN TEST TAPŞIRIQLARININ İZAHI

## Azərbaycan dili

**A variantı 1 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Sual işarəsinin yerinə hansı söz yazılsa, hər kiçik üçbucaqdakı verilən iki fikirdən yalnız biri həmin sözə aid olar?




A) qərinə B) operator C) epopeya
D) limonad E) nəşriyyat

***Mövzu:*** Fonetika
***Sinif:*** 5
***İzah:*** *qərinə [qəri:nə]* sözü 2 üçbucaqdakı tələblərdən birini ödəsə də, 1 üçbucaqda (*Eyni iki samitdən istifadə edilib*; *Cingiltili samitlərin sayı kar samitlərin sayından çoxdur*) verilən tələblərin heç birini ödəmir.
*operator [aperator]* sözündə eyni iki samitdən istifadə edilib, cingiltili samitlərlə kar samitlərin sayı bərabərdir; tərkibində uzun tələffüz olunan sait yoxdur, ahəng qanununa tabe deyil; açıq saitlərdən biri dodaqlanandır, deyilişi ilə yazılışı fərqlənir. Bu söz hər 3 üçbucaqda verilən iki tələbldən birini ödəyir.
*epopeya [epapeya]* sözü 2 üçbucaqdakı tələblərdən birini ödəsə də, 1 üçbucaqda verilən tələblərin (*Açıq saitlərdən biri dodaqlanandır; Deyilişi ilə yazılışı fərqlənmir*) heç birini ödəmir.
*limonad [limanat]* sözü 2 üçbucaqda verilən tələblərdən birini ödəsə də, 1 üçbucaqdakı tələblərin (*Açıq saitlərdən biri dodaqlanandır; Deyilişi ilə yazılışı fərqlənmir*) heç birini ödəmir.
*nəşriyyat [nəşriyat]* sözü 2 üçbucaqdakı tələblərdən birini ödəsə də, 1 üçbucaqdakı tələblərin (*Açıq saitlərdən biri dodaqlanandır; Deyilişi ilə yazılışı fərqlənmir*) heç birini ödəmir.
***Doğru cavab:*** operator

**A variantı 2 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Hansı cümlələrdə söz birləşməsi ilə ifadə olunmuş tamamlıq işlənib?

1. Ziyanın yarısından dönmək də xeyirdir.
2. Onun əlindəki balaca saz atasının dostundan yadigar qalmışdı.
3. Babam həmişə dostunun məzəli söhbətlərindən danışardı.
4. Bir sıra qəzetlərdə məqalələri çap olunmuşdur.
5. Onlar daim işıq və səadət içində olan uşaqlara bənzəyirdilər.

A) 1, 4, 5 B) 1, 3 C) 2, 4, 5 D) 2, 3 E) 2, 5

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-8
***İzah:*** 1. *Ziyanın yarısından dönmək də xeyirdir* cümləsində tamamlıq işlənməmişdir.
*2. Onun əlindəki balaca saz atasının dostundan yadigar qalmışdı* cümləsində *atasının dostundan; 3. Babam həmişə dostunun məzəli söhbətlərindən danışardı* cümləsində *dostunun məzəli söhbətlərindən* söz birləşməsi ilə ifadə olunan tamamlıqlardır.
4. *Bir sıra qəzetlərdə məqalələri çap olunmuşdur* cümləsində ki tamamlıq *(qəzetlərdə)* və 5. *Onlar daim işıq və səadət içində olan uşaqlara bənzəyirdilər* cümləsindəki tamamlıq *(uşaqlara)* isimlə ifadə olunmuşdur.
***Doğru cavab:*** 2, 3

**A variantı 3 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Nümunələrə əsasən uyğunluğu müəyyən edin.

*1. Yalnız ismi birləşməyə aid nümunələr var.*
*2. Həm ismi, həm də feili birləşməyə aid nümunə var.*
*3. Söz birləşməsinə aid nümunə yoxdur.*

a. Nə gözəl yaraşır Muğana ceyran! (S. Vurğun)
b. Bizə meydan oxuyanlar bilməlidirlər ki, Vətən əsla yada satılmaz.
c. Sanki dəhrə ilə dağı çapıb parça-parça qoparmış, qövsi-qüzehi oraya həkk etmişdilər.
d. Oğuz bəyləri bunu görüb əl çaldılar, gülüşdülər. (“Kitabi-Dədə Qorqud” dastanından)
e. Azərbaycanın hər guşəsində əsrarəngiz gözəlliyə rast gəlirsən.

A) 1 – e; 2 – d; 3 – a
B) 1 – b; 2 – c; 3 – a
C) 1 – c, e; 2 – a; 3 – b
D) 1 – d; 2 – e; 3 – a
E) 1 – b, e; 2 – d; 3 – c

***Mövzu:*** Söz birləşmələri
***Sinif:*** 5-8
***İzah:*** a. *Nə gözəl yaraşır Muğana ceyran* cümləsində söz birləşməsinə aid nümunə yoxdur.
*b. Bizə meydan oxuyanlar bilməlidirlər ki, Vətən əsla yada satılmaz* və *c. Sanki dəhrə ilə dağı çapıb parça-parça qoparmış, qövsi-qüzehi oraya həkk etmişdilər* cümlələrində yalnız feili birləşməyə aid nümunə var.
*d. Oğuz bəyləri bunu görüb əl çaldılar, gülüşdülər* nümunəsində həm ismi *(Oğuz bəyləri)*, həm də feili birləşmə *(bunu görüb)* işlənmişdir.

e. *Azərbaycanın hər guşəsində əsrarəngiz gözəlliyə rast gəlirsən* nümunəsində ismi birləşmələrdən (*Azərbaycanın hər guşəsində; əsrarəngiz gözəlliyə)* istifadə olunmuşdur.
***Doğru cavab:*** 1 – e; 2 – d; 3 – a

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 3 saylı test tapşırığı**
**C variantı 2 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Verilmiş cümlələrlə bağlı cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

| | |
|---|---|
| *O elə səhər-axşam Kürün qırağında dayanıb nəsə pıçıldayır.* | 1. İsmi əvəz edən əvəzliklərin məna növü fərqlidir.<br>2. İşarə və şəxs əvəzliyi quruluşca eyni növdədir. |
| *Lalə bütün bunları bilsə də, hey danışır, bəlkə də, bizə təskinlik vermək üçün deyirdi.* | 3. İşarə əvəzliklərindən biri ismi, digəri sifəti əvəz etmişdir.<br>4. Qrammatik şəkilçi qəbul etmiş əvəzliklərin məna növü fərqlidir. |
| *Ad-san, ev-eşik sənin bu qoca, əldən düşmüş vaxtında nəyinə gərəkdir?* | 5. Əvəzliklərin hər biri müxtəlif məna növündədir.<br>6. Şəkilçi ilə işlənmiş əvəzliklərin quruluşca növü fərqlidir. |

A) 2, 3, 6 B) 1, 3, 5 C) 2, 4, 5
D) 1, 4, 6 E) 2, 3, 5

***Mövzu:*** Əvəzlik
***Sinif:*** 5-6
***İzah:*** 1.İsmi əvəz edən əvəzliklərin *(o; nəsə)* məna növü fərqlidir.
2. *İşarə və şəxs əvəzliyi quruluşca eyni növdədir* fikri ***yanlışdır.*** Nümunədə işarə əvəzliyindən istifadə edilməyib.
3. *İşarə əvəzliklərindən biri ismi, digəri sifəti əvəz etmişdir* fikri ***yanlışdır***. Nümunədə bir işarə əvəzliyi *(bunlar)* işlənmişdir.
4. Qrammatik şəkilçi qəbul etmiş *(bunları və bizə)* əvəzliklərin məna növü fərqlidir.
5. Əvəzliklərin hər biri *(sənin, bu, nəyinə)* müxtəlif məna növündədir.
6. *Şəkilçi ilə işlənmiş əvəzliklərin quruluşca növü fərqlidir* fikri ***yanlışdır***. Hər iki əvəzlik *( sənin, nəyinə* ) quruluşca sadədir.
***Doğru cavab:*** 2, 3, 6

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

*Güman ki, bu, dağlardakı qazıntı yerlərinin çertyoju idi* cümləsindəki sözlərlə bağlı doğru fikirləri müəyyən edin.

1. *Güman ki* – modal sözdür.
2. *bu* – işarə əvəzliyidir, nə? sualına cavab verir, adlıq haldadır.
3. *dağlardakı* – quruluşca düzəltmə yer zərfidir.
4. *qazıntı* – feildən düzəlmiş isimdir, adlıq haldadır.
5. *yerlərinin* – sadə isimdir, cəm, mənsubiyyət və hal şəkilçisi qəbul edib.
6. *çertyoju* – isimdir, təsirlik haldadır.

A) 2, 3, 4 B) 3, 4, 6 C) 1, 2, 6
D) 1, 2, 5 E) 1, 3, 5

***Mövzu:*** Morfoloji təhlil
***Sinif:*** 5-7
***İzah:*** 1. *Güman ki – modal sözdür* fikri doğrudur.
2. bu – *işarə əvəzliyidir, nə? sualına cavab verir, adlıq haldadır* fikri doğrudur.
3. *dağlardakı – quruluşca düzəltmə yer zərfidir* fikri ***yanlışdır***. Bu söz quruluşca düzəltmə sifətdir.
4. *qazıntı – feildən düzəlmiş isimdir, adlıq haldadır* fikri ***yanlışdır***. Söz yiyəlik haldadır.
5. *yerlərinin – sadə isimdir, cəm, mənsubiyyət və hal şəkilçisi qəbul edib* fikri doğrudur.
6. *çertyoju – isimdir, təsirlik haldadır* fikri ***yanlışdır***. Bu söz mənsubiyyət şəkilçisi ilə işlənmişdir, adlıq haldadır.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Verilmiş nümunələrdə "*tək"* sözünün hansı nitq hissəsinə aid olduğunu göstərən düzgün ardıcıllığı müəyyən edin.

1. *Açır piyalətək ağzını zanbaq*. (S. Vurğun)
2. *Tək əllə düyün düyülməz*. (Atalar sözü)
3. *Çörəyini tək yeyən yükünü də özü qaldırar*. (Atalar sözü)
4. *Mənə çətin gündə dayaq tək sənsən*.

A) qoşma, sifət, ədat, sifət
B) qoşma, sifət, zərf, ədat
C) qoşma, ədat, sifət, zərf
D) ədat, qoşma, sifət, zərf
E) sifət, qoşma, zərf, ədat

***Mövzu:*** Morfoloji təhlil
***Sinif:*** 5-7
***İzah:*** *Açır piyalətək ağzını zanbaq* nümunəsində *tək* sözü qoşma; *Tək əllə düyün düyülməz* nümunəsində *tək* sözü sifət; *Çörəyini tək yeyən yükünü də özü qaldırar* nümunəsində *tək* sözü zərf; *Mənə çətin gündə dayaq tək sənsən* nümunəsində *tək* sözü ədatdır.
***Doğru cavab:*** qoşma, sifət, zərf, ədat

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

Nümunədə buraxılmış durğu işarələrini müəyyən edin.
*Ev sahibi qonağın əlini sıxa-sıxa Otur dedi indi gələcəklər.*

A) dırnaqlar, 3 vergül, 3 tire
B) qoşa nöqtə, 3 vergül, 2 tire
C) qoşa nöqtə, dırnaqlar, 4 vergül, 3 tire
D) qoşa nöqtə, dırnaqlar, 2 vergül, 2 tire
E) dırnaqlar, 2 vergül, 3 tire

***Mövzu:*** Durğu işarələri
***Sinif:*** 9
***İzah:*** Durğu işarələri buraxılan cümlə vasitəsiz nitqli cümlədir. Cümlədə müəllifin nitqi (*Ev sahibi qonağın əlini sıxa-sıxa),* vasitəsiz nitq *(Otur),* müəllifin nitqi *(dedi),* vasitəsiz nitq *(indi gələcəklər)* növbələşməsi var.
Cümlədə buraxılan durğu işarələri bərpa edilsə,
*Ev sahibi qonağın əlini sıxa-sıxa: "Otur, - dedi, - indi gələcəklər"* şəklində olar.
***Doğru cavab:*** qoşa nöqtə, dırnaqlar, 2 vergül, 2 tire

**A variantı 8 saylı test tapşırığı**

**B variantı 22 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 2 saylı test tapşırığı**

Orfoepik normanın pozulduğu cümlələri müəyyənləşdirin.

1. [Bir çox insannar prablemlər qarşısında a:ciz qalır.]
2. [Arıx oğlan asda-asda, qırığ-qırığ danışırdı.]
3. [Cavannar bulaxdan qayıdan qızdarnan qarşılaşdılar.]
4. [Öz ixtirasını təkmilləşdirən a:lim Fransaya mə:lumat göndərməyə na:yil oldu.]
5. [Günəş üfük'dən boylananda yolçular yola düşdülər.]

A) 2, 4  B) 2, 3  C) 1, 5  D) 4, 5  E) 1, 3

***Mövzu:*** Orfoepiya
***Sinif:*** 5-11
***İzah:*** 1. *[Bir çox insannar prablemlər qarşısında a:ciz qalır.]; 3. [Cavannar bulaxdan qayıdan qızdarnan qarşılaşdılar.]; 5.[Günəş üfük'dən boylananda yolçular yola düşdülər.]* cümlələrində orfoepik norma *pozulmamışdır.*
2. *[Arıx oğlan asda-asda, qırığ-qırığ danışırdı.]* cümləsində orfoepik norma pozulmuşdur. Cümlədə *arıq* sözündən sonra sait gəldiyi üçün *[arığ]* şəklində, *qırıq-qırıq* sözündə *q* hərfindən sonra samit gəldiyi üçün [*qırıx-qırıx*] şəklində tələffüz olunmalıdır.
4. *[Öz ixtirasını təkmilləşdirən a:lim Fransaya mə:lumat göndərməyə na:yil oldu.]* cümləsində orfoepik norma pozulmuşdur. Cümlədə ixtira sözü *[ixdira]*, Fransaya sözü *[Fransıya]* şəklində tələffüz olunmalıdır.
***Doğru cavab:*** 2, 4

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən doğru fikirləri müəyyən edin.

I *Qəsəbəyə yaxınlaşdıqca insanların hay-küyü eşidilir, həyətlərdə tonqallar gözə çarpırdı.*
II *Dənizdən əsən külək sahildə duyulan neft qoxusunu qovub uzaqlara aparırdı.*




1. İsimlərdən biri quruluşuna görə mürəkkəbdir.
2. Mənsubiyyət şəkilçili isim adlıq haldadır.
3. Bütün isimlər ümumidir.
4. Yerlik halda olan isim yer zərfliyi vəzifəsindədir.
5. Şəkilçi qəbul etməmiş isimlər eyni haldadır.
6. Həm ismi, həm də feili birləşmənin asılı tərəfində isim işlənmişdir.

A) 1, 4, 6  B) 1, 2, 3  C) 2, 3, 4, 5
D) 2, 3, 5  E) 1, 4, 5, 6

***Mövzu:*** İsim
***Sinif:*** 5-6
***İzah:*** 1. *İsimlərdən biri quruluşuna görə mürəkkəbdir* fikri doğrudur. I cümlədə isimlərdən biri *(hay-küy)* quruluşuna görə mürəkkəbdir.
2. *Mənsubiyyət şəkilçili isim adlıq haldadır* fikri yalnız I cümləyə aid olan doğru fikirdir. *Hay-küyü* mənsubiyyət şəkilçili adlıq halda olan isimdir.
3. *Bütün isimlər ümumidir* fikri doğrudur. Bu fikir hər iki cümlə ilə bağlı ortaq fikirdir.
4. *Yerlik halda olan isim yer zərfliyi vəzifəsindədir* fikri hər iki cümlə ilə bağlı ortaq fikir ***deyil***. I cümlədə yerlik halda olan isim *(həyətlərdə)* yer zərfliyi vəzifəsindədir. II cümlədə yerlik halda olan isim *(sahildə)* feili birləşmənin tərkibindədir və yer zərfliyi deyil.
5. *Şəkilçi qəbul etməmiş isimlər eyni haldadır* fikri ***yanlışdır***. II cümlədə şəkilçi qəbul etməmiş isimlər *(külək, neft)* eyni halda deyil. *Külək* adlıq halda, *neft* sözü yiyəlik haldadır.
6**.** *Hər iki cümlədə həm ismi, həm də feili birləşmənin asılı tərəfində isim işlənmişdir* fikri ***yanlışdır***. Bu fikir hər iki cümlə ilə bağlı doğru fikirdir.
***Doğru cavab:*** 1, 2, 3

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Cümlələrin birində *"düz"* sözü zərf kimi işlənmişdir:

A) Dağlarla əhatə edilmiş bu düz maralların məskənidir.
B) Kəklik xanım şamları güzgünün qarşısına düzdü.
C) Nailə, gəl hər şeyi düz danışaq.
D) Maşın evimizin düz qabağında dayandı.
E) Düz yol insanı həmişə xoşbəxtliyə çatdırar.

***Mövzu:*** Zərf
***Sinif:*** 5
***İzah:*** Düz sözü *Dağlarla əhatə edilmiş bu düz maralların məskənidir* cümləsində isim; *Kəklik xanım şamları güzgünün qarşısına düzdü* cümləsində feil; *Nailə, gəl hər şeyi düz danışaq* cümləsində zərf; *Maşın evimizin düz qabağında dayandı* cümləsində ədat*; Düz yol insanı həmişə xoşbəxtliyə çatdırar* cümləsində sifət kimi işlənmişdir.
***Doğru cavab:*** Nailə, gəl hər şeyi düz danışaq.

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 2 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Hansı nümunədə müxtəlif məna növünə aid iki ədat işlənib?

A) Ancaq onu bilirdim ki, yalnız dostum məni tək qoymaz.
B) Onun əlləri də, üzü də soyuqdan lap buz kimi olmuşdu.
C) Sənin ki xəbərin var idi, bəs niyə demədin?
D) Siz məgər onu evdən çıxanda görmüşdünüzmü?
E) Axı sən də hər şeyi bilirsən.

***Mövzu:*** Köməkçi nitq hissələri. Ədat
***Sinif:*** 5-7
***İzah:*** *Ancaq onu bilirdim ki, yalnız dostum məni tək qoymaz* cümləsində işlənən hər iki ədat (ancaq, yalnız) eyni məna növündədir.
*Onun əlləri də, üzü də soyuqdan lap buz kimi olmuşdu* cümləsində bir ədat (lap) işlənib.
*Sənin ki xəbərin var idi, bəs niyə demədin* cümləsində işlənən ədatlar (ki, bəs) müxtəlif məna növündədir.
*Siz məgər onu evdən çıxanda görmüşdünüzmü* cümləsində işlənmiş ədatlar (məgər, -mü); *Axı sən də hər şeyi bilirsən* cümləsində işlənmiş (axı, də) ədatlar eyni məna növündədir.
***Doğru cavab:*** Sənin ki xəbərin var idi, bəs niyə demədin?

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

| *Nümunələr* | *Nümunəyə aid doğru fikirdir* | *Nümunəyə aid **yanlış** fikirdir* |
|---|---|---|
| Səmanın bir küncündə tək bir ulduz parlayırdı və bu ulduzun işığında hər şey daha sakit, daha dərin görünürdü. | 1. Həmcins zərfliklərin iştirak etdiyi sadə cümlədir. | 2. Tabesizlik əlaqəsindən istifadə olunmuşdur. |
| Qadın pəncərədən çölə baxır, yağış damlaları şüşə üzərində iz saldıqca şirin xatirələr bir film kimi gözlərinin önündən keçirdi. | 3. Hər iki tərkib hissəsi müəyyən şəxsli nəqli cümlədən ibarət tabesiz mürəkkəb cümlədir. | 4. Təyinlər söz birləşməsi ilə ifadə olunmuşdur. |

A) 1, 4 B) 1, 3 C) 2, 3 D) 3, 4 E) 1, 2

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-9
***İzah:*** 1-ci fikir ***yanlışdır***. Cümlədə həmcins zərfliklər iştirak etsə də, cümlə mürəkkəb cümlədir. Cədvələ əsasən uyğun deyil.
2-ci fikir doğrudur. Cümlədə tabesizlik əlaqəsindən istifadə olunmuşdur. Cədvələ əsasən uyğun deyil.
3-cü fikir doğrudur. Cümlə hər iki tərkib hissəsi müəyyən şəxsli nəqli cümlədən ibarət tabesiz mürəkkəb cümlədir. Cədvələ əsasən uyğundur.
4-cü fikir ***yanlışdır***. Cümlədə sifətlə (*şirin*) ifadə olunan bir təyin işlənmişdir. Cədvələ əsasən uyğundur.
***Doğru cavab:*** 3, 4

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Müqayisə cədvəlinə əsasən uyğun fikirləri müəyyən edin.

| *Bu sözlər mənə bir neçə saatdan sonra açılacaq bahar səhəri kimi təzə və parlaq bir həyat vəd edirdi.* | *Pəncərənin pərdəsini yellədərək içəri dolan yaz küləyi sanki özü ilə yeni duyğular gətirir.* |
|---|---|
| 1. Söz birləşməsi mübtədanın ifadə vasitəsidir.<br>2. Feili birləşmə xəbərin ifadə vasitəsi kimi çıxış etmişdir. | 3. Mübtəda cəm şəkilçisi qəbul etmiş isimlə ifadə olunmuşdur.<br>4. İsmi birləşmə baş üzvlərdən birinin ifadə vasitəsidir. |
| 5. Xəbərin ifadə vasitəsi indiki zamanda işlənmiş feildir.<br>6. Xəbər uzlaşma əlaqəsində asılı tərəfdir. | |

A) 1, 2, 6 B) 3, 4, 6 C) 2, 4, 5
D) 1, 2, 3 E) 4, 5, 6

***Mövzu:*** Cümlə üzvləri. Baş üzvlər
***Sinif:*** 5-8
***İzah:*** *Bu sözlər mənə bir neçə saatdan sonra açılacaq bahar səhəri kimi təzə və parlaq bir həyat vəd edirdi* cümləsi ilə bağlı verilən 1-ci fikir ***yanlışdır.*** Mübtədanın ifadə vasitəsi isimdir *(sözlər)*.
2-ci fikir ***yanlışdır***. Feili birləşmə xəbərin ifadə vasitəsi kimi çıxış etməmişdir.
*Pəncərənin pərdəsini yellədərək içəri dolan yaz küləyi sanki özü ilə yeni duyğular gətirir cümləsi* ilə bağlı verilən 3-cü fikir ***yanlışdır***. Cümlənin mübtədası söz birləşməsi ilə *(yaz küləyi)* ifadə olunmuşdur.
4-cü fikir doğrudur. İsmi birləşmə *(yaz küləyi)* mübtədanın ifadə vasitəsidir.
5-ci fikir doğrudur. Hər iki cümlədə xəbərin ifadə vasitəsi indiki zamanda işlənmiş feildir.
6-ci fikir doğrudur. Hər iki cümlədə xəbər uzlaşma əlaqəsində asılı tərəfdir.

***Doğru cavab:*** 4, 5, 6

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 3 saylı test tapşırığı**

Hansı cümlədə mübtədanın əlavəsi işlənmişdir?
A) Xala, iki gündən sonra şənlikdir – Südabənin ad günüdür.
B) Hər səhər Əlinin bacısı qaymağı qonşuya – Zümrüd xalaya çatdırardı.
C) Rəfiqə – vəndamlı İbrahimxəlilin anası çox müdrik qadındır.
D) Qızlardan birini – Günayı çox bəyənmişdim.
E) Qarabağa – bu qədim və gözəl diyara heyranam.

***Mövzu***: Əlavələr
***Sinif:*** 8
***İzah:*** *Xala, iki gündən sonra şənlikdir – Südabənin ad günüdür* cümləsində xəbərin; *Hər səhər Əlinin bacısı qaymağı qonşuya – Zümrüd xalaya çatdırardı* cümləsində tamamlığın; *Rəfiqə – vəndamlı İbrahimxəlilin anası çox müdrik qadındır* cümləsində mübtədanın; *Qızlardan birini – Günayı çox bəyənmişdim* cümləsində tamamlığın; *Qarabağa – bu qədim və gözəl diyara heyranam* cümləsində zərfliyin əlavəsi işlənmişdir.
***Doğru cavab:*** Rəfiqə – vəndamlı İbrahimxəlilin anası çox müdrik qadındır.

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Nümunədəki köməkçi nitq hissələrinin işlənmə ardıcıllığını müəyyən edin.
*Kaş ki düşməyəydim bu saraylara,*
*Yanıldım, doğrusu, uyub aldandım.* (S. Vurğun)

A) ədat, modal söz B) bağlayıcı, modal söz
C) ədat, ədat D) ədat, bağlayıcı
E) qoşma, bağlayıcı

***Mövzu***: Köməkçi nitq hissələri
***Sinif:*** 5-7
***İzah:*** *Kaş ki düşməyəydim bu saraylara,*
*Yanıldım, doğrusu, uyub aldandım* nümunəsində *kaş ki* ədat, *doğrusu* modal sözdür.
***Doğru cavab:*** ədat, modal söz

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Hansı nümunələrdə həmcins üzvlər mübtəda ilə sintaktik əlaqədədir?

1. Dostlarının fikrincə, o, mərd və sözübütöv adam idi.
2. O, yazıçı, şair və rəssamları bu konsert salonunda tez-tez görürdü.
3. Son dəblə geyinmiş, seyrəlməkdə olan saçlarını arxadan uzatmış adam ona kimisə xatırladırdı.
4. Leyla muzeylərdə, sərgilərdə onun bəzi rəsm əsərlərinə xüsusi maraqla tamaşa etmişdi.
5. Ay dağlar arxasından oğrun-oğrun boylanaraq ona baxdı, məftun oldu.
6. Ucaboylu, ağbəniz, gözəl bir qadın gülümsəyərək mənə yaxınlaşdı.

A) 3, 4, 5  B) 1, 2, 6  C) 2, 3, 4, 6
D) 1, 2, 4, 5  E) 3, 5, 6

***Mövzu:*** Həmcins üzvlər
***Sinif:*** 8
***İzah:*** 1. *Dostlarının fikrincə, o,* ***mərd*** *və* ***sözübütöv*** *adam idi; 2. O,* ***yazıçı, şair və rəssamları*** *bu konsert salonunda tez-tez görürdü; 4. Leyla* ***muzeylərdə, sərgilərdə*** *onun bəzi rəsm əsərlərinə xüsusi maraqla tamaşa etmişdi* nümunələrində tünd-qara hərflərlə fərqləndirilən cümlə üzvləri həmcins üzvlərdir və mübtəda ilə deyil, xəbərlə sintaktik əlaqədədir.
*3. Son dəblə geyinmiş, seyrəlməkdə olan saçlarını arxadan uzatmış adam ona kimisə xatırladırdı* nümunəsində həmcins təyinlər (***son dəblə geyinmiş, seyrəlməkdə olan saçlarını arxadan uzatmış***); 5. *Ay dağlar arxasından oğrun-oğrun boylanaraq ona baxdı, məftun oldu nümunəsinə həmcins xəbərlər* ***(baxdı, məftun oldu)****;* 6. *Ucaboylu, ağbəniz, gözəl bir qadın gülümsəyərək mənə yaxınlaşdı* nümunəsində həmcins təyinlər ***(ucaboylu, ağbəniz, gözəl)*** mübtəda ilə sintaktik əlaqədədir.

***Doğru cavab:*** 3, 5, 6

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

Klasteri tamamlayan fikirləri müəyyən edin.




1. Çapdırır atını birbaşa dünya. (S. Vurğun)
2. Gənclər yeni arzulara qovuşmaq üçün inamla irəliləyirlər.
3. Qırıldı arzular, öldü inamlar. (B. Vahabzadə)
4. Əsər, film və ssenari bir-birindən fərqlənirlər.
5. Ayaq izlərimiz qarın üzərində çuxur yaratdı.

A) 2, 4  B) 3, 5  C) 2, 5  D) 1, 3  E) 1, 4

***Mövzu:*** Dil. Nitq mədəniyyəti
***Sinif:*** 10
***İzah:*** *1. Çapdırır atını birbaşa dünya; 3. Qırıldı arzular, öldü inamlar; 4. Əsər, film və ssenari bir-birindən fərqlənirlərdi* cümlələri qrammatik normaya ***uyğun deyil****.*
*2. Gənclər yeni arzulara qovuşmaq üçün inamla irəliləyirlər* və *5. Ayaq izlərimiz qarın üzərində çuxur yaratdı* cümlələri qrammatik normaya uyğundur.
***Doğru cavab:*** 2, 5

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

*Zakir dostu Fərruxa dərhal teleqram göndərdi ki, onun bu gün gələcəyini doğma qardaşına da söyləməsin* cümləsi haqqında deyilənlərdən biri ***yanlışdır:***

A) Həm baş, həm də budaq cümlə müəyyən şəxsli cümlədir.
B) Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanıb.
C)  sxeminə uyğundur.
D) Baş cümlədə ikincidərəcəli cümlə üzvlərinin hamısı işlənib.
E) Budaq cümlədə işlənən tamamlıqların hər ikisi söz birləşməsi ilə ifadə olunub.

***Mövzu:*** Tabeli mürəkkəb cümlə
***Sinif:*** 9
***İzah:*** Həm baş, həm də budaq cümlə müəyyən şəxsli cümlədir.
Budaq cümlə baş cümləyə *ki* bağlayıcısı ilə bağlanıb.
 sxeminə uyğundur.
Baş cümlədə ikincidərəcəli cümlə üzvlərinin hamısı (dostu-*təyin*; Fərruxa, teleqram-*tamamlıq*; dərhal-*zərflik*) işlənib.
*Budaq cümlədə işlənən tamamlıqların hər ikisi söz birləşməsi ilə ifadə olunub* fikri ***yanlışdır.*** Cümlədə işlənən tamamlıqlardan biri söz birləşməsi (*onun bu gün gələcəyini),* digəri nitq hissəsi ilə *( qardaşına)* ifadə olunub.

***Doğru cavab:*** Budaq cümlədə işlənən tamamlıqların hər ikisi söz birləşməsi ilə ifadə olunub.

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 1 saylı test tapşırığı**

Hansı iki sözdən biri bütün tələbləri ödəsə də, digəri heç bir tələbi ***ödəmir***?

- *Kökü feil ilə omonimdir.*
- *Başqa sözlə eyniköklü ola bilər.*
- *Leksik şəkilçilərlə işlənib.*
- *Tərkibinə görə təhlili iki cür düşünülür.*

A) sıxlaşdı; dinmir
B) qavramaq; yoldaşlıq
C) daşladaq; dağıntı
D) daşıtdırmaq; yazılış
E) qırıcılar; düzləşdir

***Mövzu:*** Söz yaradıcılığı
***Sinif:*** 5
***İzah:*** *sıxlaşdı* sözü verilən tələblərin ikisini ödəyir. Kökü sıxmaq feili ilə omonimdir, başqa sözlə (məsələn, sıxlıq) eyniköklü ola bilər*; dinmir* sözü verilən tələblərin heç birini ödəmir.
*qavramaq* sözü verilən tələblərin heç birini ödəmir;

*yoldaşlıq* sözü verilən tələblərin üçünü ödəyir. Kökü yolmaq feili ilə omonimdir; başqa sözlə (məsələn, yolçu) eyniköklü ola bilər, leksik şəkilçilərlə (-daş; -lıq) işlənib.

*daşladaq* sözü verilən tələblərin hər birini ödəyir. Kökü (daş) feili ilə omonimdir; başqa sözlə (məsələn, daşlıq) eyniköklüdür; leksik şəkilçilərlə *(-la; -t)* işlənib. Tərkibinə görə təhlili iki cür *(daş-la-t-aq; daş-la-t-a-q)* düşünülür*; dağıntı* sözü verilən tələblərin heç birini ödəmir.

*daşıtdırmaq* sözü verilən tələblərin ikisini ödəyir. Başqa sözlə (məsələn, daşıyıcı) eyniköklü ola bilər; leksik şəkilçilərlə (-t; -dır) işlənib. *yazılış* sözü verilən tələblərin ikisini *ödəyir*. Başqa sözlə (məsələn, yazılmaq) eyniköklü ola bilər; leksik şəkilçilərlə (-ıl; -ış) işlənib.

*qırıcılar* sözü verilən tələblərin birini ödəyir. Başqa sözlə (məsələn, qırıq) eyniköklü ola bilər; *düzləşdir* sözü verilən tələblərin üçünü ödəyir. Kökü düzmək feili ilə omonimdir; başqa sözlə (məsələn, düzlük) eyniköklü ola bilər; leksik şəkilçilərlə (-ləş; -dır) işlənib.

***Doğru cavab:*** daşladaq; dağıntı

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 1 saylı test tapşırığı**
**C variantı 1 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Verilmiş sözlərin mənasına uyğun gələn frazeoloji birləşmələri müəyyən edin.

1. fərəhlənmək
2. bəyənmək
3. ruhlandırmaq

a. gözü tutmaq
b. ilham vermək
c. ürəyi sinəsinə sığmamaq
d. özünə sığışdırmamaq
e. könlünə yatmaq

A) 1 – c; 2 – a, e; 3 – b
B) 1 – a; 2 – c, e; 3 – d
C) 1 – b, e; 2 – a; 3 – d
D) 1 – a, c; 2 – e; 3 – b, d
E) 1 – e; 2 – a, c; 3 – b

***Mövzu:*** Frazeoloji birləşmələr
***Sinif:*** 5
***İzah:*** 1. *fərəhlənmək - ürəyi sinəsinə sığmamaq*;
2. *bəyənmək - gözü tutmaq, könlünə yatmaq*
3. *ruhlandırmaq - ilham vermək* mənasına uyğun gəlir. *özünə sığışdırmamaq* ifadəsi *qəbul edə bilməmək* mənasındadır və verilmiş heç bir sözün mənasına uyğun gəlmir.
***Doğru cavab:*** 1 – c; 2 – a, e; 3 – b

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 3 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

*Zaur, Hafiz, Xəlil, yəqin ki, sifariş edilmiş əşyaları sabah ünvana çatdıracaqlar* cümləsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

1. Cümlənin sintaktik təhlil sxemi müxtəlif formada düşünülə bilər.
2. Tərkibində xitab işləndiyini düşünmək olar.
3. Həm müəyyən şəxsli, həm də qeyri-müəyyən şəxsli cümlə kimi düşünülə bilər.
4. Cümlədə uzlaşma əlaqəsinin olduğunu əminliklə demək olar.
5. Güman-şübhə bildirən ara söz işlənmişdir.
6. Təyin söz birləşməsi ilə ifadə olunub.

A) 3, 6 B) 4, 6 C) 2, 3, 5 D) 1, 2, 5 E) 1, 4

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-9
***İzah:*** 1. *Cümlənin sintaktik təhlil sxemi müxtəlif formada düşünülə bilər* fikri doğrudur. Həm *təyin, tamamlıq, zərflik, zərflik, xəbər* şəklində, həm *mübtəda, mübtəda, mübtəda , təyin,tamamlıq, zərflik, zərflik, xəbər* şəklində, həm də *mübtəda, mübtəda , təyin,tamamlıq, zərflik, zərflik, xəbər* şəklində təhlil olunan bilər.
2. *Tərkibində xitab işləndiyini düşünmək olar* fikri doğrudur. Nümunənin tərkibində həm yalnız *Zaur* sözü, həm də *Zaur, Hafiz, Xəlil* sözləri xitab kimi düşünülə bilər.
3. *Həm müəyyən şəxsli, həm də qeyri-müəyyən şəxsli cümlə kimi düşünülə bilər* fikri doğrudur. Cümlədə mübtədalardan istifadə edilərsə, müəyyən şəxsli, xitablardan istifadə edilərsə, qeyri-müəyyən şəxsli cümlə kimi düşünülə bilər.
4. *Cümlədə uzlaşma əlaqəsinin olduğunu əminliklə demək olar* fikri ***yanlışdır***. Əgər cümlə qeyri-müəyyən şəxsli cümlədirsə, uzlaşma əlaqəsi yoxdur, müəyyən şəxsli cümlədirsə, uzlaşma əlaqəsi var.
5. *Güman-şübhə bildirən ara söz işlənmişdir* fikri doğrudur. *Yəqin ki* ara sözdür.
6. *Təyin söz birləşməsi ilə ifadə olunub fikri **yanlışdır***. Təyin feili sifətlə *(sifariş edilmiş*) ifadə olunub.
***Doğru cavab:*** 4, 6

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Hansı cümlədə məchul növdə işlənmiş feil xəbər şəklində ***deyil***?

A) İndi bu barədə hər yerdə danışılacaq.
B) Dediyim sözlər nöqtəsinədək yazılmalıdır.
C) Gün gələr, bütün bağlı sirlər açılar.
D) Sınaq imtahanı keçirildi.
E) Əmin ol ki, bu sözlər sənə görə deyilirdi.

***Mövzu:*** Feil
***Sinif:*** 5-7
***İzah:*** *İndi bu barədə hər yerdə danışılacaq; Gün gələr, bütün bağlı sirlər açılar; Sınaq imtahanı keçirildi; Əmin ol ki, bu sözlər sənə görə deyilirdi* cümlələrində məchul növdə işlənmiş feillər xəbər şəklindədir. *Dediyim sözlər nöqtəsinədək yazılmalıdır* cümləsində məchul növdə işlənmiş feil vacib şəklindədir.
***Doğru cavab:*** Dediyim sözlər nöqtəsinədək yazılmalıdır.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Cədvələ əsasən uyğun fikirləri müəyyən edin.

I uzunluqölçən
II yağışlı-çiskinli

| Yalnız I sözə aiddir: | Hər iki sözə aiddir: | Yalnız II sözə aiddir: |
|---|---|---|
| 1. Kar qarşılığı olan iki cingiltili samit işlənmişdir. | 3. Sözdə [x] samitinin cingiltili qarşılığı işlənib. | 5. Hərflərlə səslərin sayı bərabərdir.<br>6. Kar |

| | | |
|---|---|---|
| 2. Kar və cingiltili samitlər yanaşı işlənmişdir. | 4. Sözün deyilişi ilə yazılışı arasında iki fərqli məqam var. | qarşılığı olmayan iki samit işlənmişdir. |

***Mövzu:*** Fonetik təhlil
***Sinif:*** 5
***İzah:*** 1. *Kar qarşılığı olan iki cingiltili samit işlənmişdir* fikri cədvələ əsasən uyğundur. I sözün (*[uzunnuğölçən]*) tərkibində *[z],[ğ] samitləri* işlənmişdir.
2. *Kar və cingiltili samitlər yanaşı işlənmişdir* fikri cədvələ əsasən uyğun ***deyil.*** Bu sözün (*[yağışdı-çisginni]) tərkibində* kar və cingiltili samitlər *([ş],[d] və [s],[g])* yanaşı gəlsə də, I sözün tərkibində də kar və cingiltili samitlər *([l],[ç])* yanaşı gəlmişdir.
3. *Sözdə [x] samitinin cingiltili qarşılığı işlənib* fikri cədvələ əsasən uyğundur. Hər iki sözün tərkibində *[ğ]samiti işlənib.*
4. *Sözün deyilişi ilə yazılışı arasında iki fərqli məqam var* fikri cədvələ əsasən uyğun ***deyil***. Bu fikir I sözə aiddir.
5. *Hərflərlə səslərin sayı bərabərdir* fikri cədvələ əsasən uyğun ***deyil***. Bu fikir hər iki sözə aiddir.
6. *Kar qarşılığı olmayan iki samit işlənmişdir* fikri cədvələ əsasən uyğundur.
***Doğru cavab:*** 1, 3, 6

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Verilmiş cümlə ilə bağlı doğru fikirləri müəyyən edin.
*Mən öz arzularıma həmişəlik vida edib kiçik bir kənd klubunda işləməyə gedirdim.*
1. Əvəzliklər müxtəlif məna növündədir.
2. Hal şəkilçisi qəbul etmiş bütün sözlər isimdir.
3. Sifət adi dərəcədədir.
4. Feillərin hər birinin quruluşca növü fərqlidir.
5. Zərfin müxtəlif məna növlərindən istifadə edilib.
6. Leksik mənası olmayan söz var.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 5-6
***İzah:*** 1. Əvəzliklər *(mən, öz)* müxtəlif məna növündədir.
2. *Hal şəkilçisi qəbul etmiş bütün sözlər isimdir* fikri ***yanlışdır.*** Hal şəkilçisi qəbul etmiş sözlərdən biri *(işləməyə)* məsdərdir.
3. Sifət *(kiçik)* adi dərəcədədir.
4. Feillərin hər birinin quruluşca növü *(vida edib-mürəkkəb; işləməyə -düzəltmə; gedirəm- sadə)* fərqlidir.
5. Zərfin müxtəlif məna növlərindən istifadə edilib fikri ***yanlışdır.*** Zərfin bir məna növündən *(həmişəlik)* istifadə edilib.
6. Leksik mənası olmayan söz *(bir-ədat)* var.
***Doğru cavab:*** 1, 3, 4, 6

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Cümlələrdə işlənmiş təsriflənməyən feillərlə bağlı doğru fikirləri müəyyən edin.
- *Mən saralmış buğda zəmilərinin arası ilə yavaş-yavaş irəliləyir və bugünkü hadisələr haqqında düşünərək deyilənləri götür-qoy edirdim.*
- *Sürücü maşından düşdü və palçığa bata-bata uzaqdan görünən evlərin arasında gözdən itdi.*

1. Birinci cümlədə həm indiki, həm də keçmiş zaman məzmunlu feili sifət işlənib.
2. Birinci cümlədə bütün təsriflənməyən feillər tərkib əmələ gətirib.
3. Hər iki cümlədə işlənmiş bütün feili sifətlər eyni qrammatik məna növündədir.
4. İkinci cümlədə təsriflənməyən feillərin hər ikisi tərkib əmələ gətirib.
5. İkinci cümlədə hərəkətin zamanını bildirən feili bağlama işlənib.

***Mövzu:*** Təsriflənməyən feillər
***Sinif:*** 5-7
***İzah:*** 1. Birinci cümlədə həm indiki, həm də keçmiş zaman məzmunlu feili sifət *(saralmış, deyilənləri)* işlənib.
2. *Birinci cümlədə bütün təsriflənməyən feillər tərkib əmələ gətirib fikri* ***yanlışdır***. Cümlədə yalnız feli bağlama tərkib əmələ gətirib (*bugünkü hadisələr haqqında düşünərək).*
3. *Hər iki cümlədə işlənmiş bütün feili sifətlər eyni qrammatik məna növündədir fikri* ***yanlışdır***. *Saralmış*-məlum; *deyilənləri* – məchul; *görünən* – qayıdış növdədir.
4. *İkinci cümlədə təsriflənməyən feillərin hər ikisi tərkib əmələ gətirib* fikri doğrudur. Cümlədə təsriflənməyən feillər (*palçığa bata-bata, uzaqdan görünən)* tərkib əmələ gətirib.
5. İkinci cümlədə hərəkətin zamanını bildirən feili bağlama işlənib fikri ***yanlışdır.*** İkinci cümlədə hərəkətin zamanını yox, tərzini bildirən feili bağlama *(bata-bata)* işlənib.
***Doğru cavab:*** 1, 4

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Verilmiş cümlə ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
*Yeni gələn adam həyətə daxil olub darvazanın böyük qapılarını taybatay açdı.*
1. Bütün ikincidərəcəli cümlə üzvləri iştirak etmişdir.
2. Zərfliklərin ifadə vasitəsi eynidir.
3. Feili birləşmələrin hər biri müxtəlif cümlə üzvlərinin ifadə vasitəsidir.
4. Qrammatik əsası təşkil edən cümlə üzvləri nitq hissəsi ilə ifadə olunmuşdur.
5. Nitq hissəsi ilə ifadə olunmuş ikincidərəcəli cümlə üzvü yoxdur.
6. Həm söz birləşməsi, həm də nitq hissəsi ilə ifadə olunmuş təyin işlənmişdir.

***Mövzu:*** Cümlə üzvləri
***Sinif:*** 5-8
***İzah:*** 1. Bütün ikincidərəcəli cümlə üzvləri iştirak etmişdir. *Yeni gələn* - təyin; *həyətə daxil olub* – zərflik; *darvazanın böyük qapısını* –tamamlıq; *taybatay* –zərflikdir.
2. *Zərfliklərin ifadə vasitəsi eynidir* fikri ***yanlışdır.*** Zərfliklərdən biri feili birləşmə (*həyətə daxil olub)*, digəri zərflə *(taybatay)* ifadə olunub.
3. Feili birləşmələrin hər biri *(yeni gələn – təyin; həyətə daxil olub – zərflik)* müxtəlif cümlə üzvlərinin ifadə vasitəsidir.
4. Qrammatik əsası təşkil edən üzvlər *(adam-mübtəda; daxil oldu-xəbər)* nitq hissəsi ilə ifadə olunmuşdur.

5. *Nitq hissəsi ilə ifadə olunmuş ikincidərəcəli cümlə üzvü yoxdur* fikri ***yanlışdır.*** Zərflə, yəni nitq hissəsi ilə ifadə olunmuş zərflik işlənmişdir.
6. *Həm söz birləşməsi, həm də nitq hissəsi ilə ifadə olunmuş təyin işlənmişdir* fikri ***yanlışdır***. Təyin yalnız söz birləşməsi ilə *(yeni gələn)* ifadə olunub.

***Doğru cavab:*** 2, 5, 6

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
1. Müəyyən şəxsli cümlə
2. Ümumi şəxsli cümlə
3. Şəxssiz cümlə

a. Mübariz İbrahimov öz qəhrəmanlığı ilə adını xalqımızın şərəf tarixinə yazdı.
b. Məktəbimizə yaşıllıq salmaq üçün çoxlu ağac gətirdilər.
c. Yurdumuzun hər yerində gözəl təbiət mənzərələrinə rast gəlirsən.
d. Sənədlərə diqqətlə nəzər salındı.
e. Mənim ora getməyimə yardım edəcəklər?

***Mövzu:*** Baş üzvlərin iştirakına görə sadə cümlənin növləri
***Sinif:*** 8
***İzah:*** a. *Mübariz İbrahimov öz qəhrəmanlığı ilə adını xalqımızın şərəf tarixinə yazdı* – müəyyən şəxsli; **c.** *Yurdumuzun hər yerində gözəl təbiət mənzərələrinə rast gəlirsən* –ümumi şəxsli; d. *Sənədlərə diqqətlə nəzər salındı* – şəxssiz cümlədir. *b. Məktəbimizə yaşıllıq salmaq üçün çoxlu ağac gətirdilər* və *e. Mənim ora getməyimə yardım edəcəklər?* cümlələri qeyri-müəyyən şəxsli cümlə olduğuna görə heç bir uyğunluğa aid deyil.
***Doğru cavab:*** 1- a; 2 – c; 3- d

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 28 – 30 saylı tapşırıqları <u>Cavab vərəqində</u> yerinə yetirin.***

**“Torpaqsız əkin” üsulu**

<u>Əlverişsiz hava şəraiti, ▲</u> *<u>məhsuldar</u>* <u>torpaqların azalması, tərəqqi edən əhali sayı fermerləri alternativ yollar axtarmağa tədqiq etdi.</u> Beləliklə, “torpaqsız əkin” üsulları yaranmağa başladı.

Bu üsulun əsas prinsipi bitkinin vacib ehtiyaclarını – su, mineral və köklərini dayaya biləcəyi səthi təmin edərək onu torpaq olmadan yetişdirməkdir. “Torpaqsız əkin” bitki köklərinin havada qalması demək deyil. Torpaq əvəzinə çay daşları, kokopit (Cənubi Asiyada bitən kokos meyvəsinin qabığından hazırlanır) və s. materiallardan istifadə edilir.

“Torpaqsız əkin”də aqrotexniki qulluq daha rahat, məhsuldarlıq daha yüksək, istehsal xərci də nisbətən aşağıdır.

Hazırda bir sıra ölkələrdə fermerlər “torpaqsız əkin” üsulundan istifadə edirlər. Torpaqda çalışmağı sevməyən, amma həyatində və ya eyvanında bitki yetişdirmək istəyən şəhər sakinləri üçün də “torpaqsız əkin” üsulu yaxşı fürsətdir. Bu üsulla əkilən bitkilər 50 faiz daha ● *sürətlə* böyüyür, cəmi 5-6 həftəyə bar verir. Həmçinin bitki daha təhlükəsiz mühitdə yetişir, ətrafdakı ziyanvericilərdən ■ *qorunur* və onun xəstəliklərə qarşı müqaviməti artır.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Mətnə əsasən cədvəli tamamlayın.

| ***Müddəa*** | ***Faktlar*** |
|---|---|
| 1. | “Torpaqsız əkin” üsulu ilə əkilən bitkilər 50 faiz daha sürətlə böyüyür. |
| | 2. |
| | 3. |

***Mövzu:*** Mətn
***Sinif:*** 5-11
***İzah:***

| ***Müddəa*** | ***Faktlar*** |
|---|---|
| 1. “Torpaqsız əkin” üsulunun bir sıra üstünlükləri var. | “Torpaqsız əkin” üsulu ilə əkilən bitkilər 50 faiz daha sürətlə böyüyür. |
| | 2. “Torpaqsız əkin”də aqrotexniki qulluq daha rahat, məhsuldarlıq daha yüksək, istehsal xərci də nisbətən aşağıdır. |
| | 3. “Torpaqsız əkin” üsulu ilə əkilən bitkilər daha təhlükəsiz mühitdə yetişir. |
| | 4. “Torpaqsız əkin” üsulu ilə əkilən bitkilər ətrafdakı ziyanvericilərdən qorunur. |

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

Mətndə əvvəlində işarə qoyulmuş sözlərin qarşılığını

(ifadə etdiyi mənanı) müəyyən edib yazın.

▲

●

■

***Mövzu:*** Mətn

***Sinif:*** 5-11

***İzah***

▲ münbit; bərəkətli

● tez; cəld

■ mühafizə edilir; müdafiə olunur

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Mətndə altından xətt çəkilmiş cümlədə uyğun düzəlişlər (yalnız qüsurlu məqamlarda) etməklə cümləni yenidən yazın.

***Mövzu:***Mətn

***Sinif:*** 5-11

***İzah:***

Əlverişsiz hava şəraiti**,** məhsuldar torpaqların azalması**,** *artan* əhali sayı fermerləri alternativ yollar axtarmağa *vadar etdi.*

# Tarix

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 46 saylı test tapşırığı**
**C variantı 42 saylı test tapşırığı**
**D variantı 46 saylı test tapşırığı**

E.ə. IV minilliyin sonunda Qədim Misirdə vahid dövlət yarandı:

A) Əhəməni dövlətinin süqutu nəticəsində
B) II Ramzesin Het dövləti üzərində qələbə qazanması nəticəsində
C) xarici işğalçılara qarşı mübarizə gedişində
D) Yuxarı Misirin Aşağı Misir üzərində qələbəsi nəticəsində
E) III Tutmosun işğalçı müharibələrinin gedişində

***Mövzu:*** Qədim Şərq

***Sinif:*** 6, 10

***İzah:*** E.ə. IV minilliyin sonunda Qədim Misirdə vahid dövlət Yuxarı Misirin Aşağı Misir üzərində qələbəsi nəticəsində yaranmışdı. Əhəməni dövlətinin süqutu, Misir fironu II Ramzesin Het dövləti ilə mübarizəsi və xarici işğalçılara qarşı mübarizə Misirdə vahid dövlətin yaranması ilə bağlı deyil.

***Doğru cavab:*** Yuxarı Misirin Aşağı Misir üzərində qələbəsi nəticəsində

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 41 saylı test tapşırığı**

– NATO-ya üzv olması
– Konstitusiya qəbul edilməsi
– Avropa İqtisadi Birliyinin yaradılmasında iştirak edilməsi

Verilənlərin hər üçü hansı dövlətlərin İkinci dünya müharibəsindən sonrakı tarixinin ümumi cəhətləridir?

A) Türkiyə və Pakistan
B) İngiltərə və AFR
C) Fransa və SSRİ
D) Fransa və AFR
E) ABŞ və İngiltərə

***Mövzu:*** Dünya dövlətləri II dünya müharibəsindən sonrakı dövrdə

***Sinif:*** 9, 11

***İzah:*** NATO-ya üzv olması, Konstitusiya qəbul edilməsi və Avropa İqtisadi Birliyinin yaradılmasında iştirak edilməsi yalnız Fransa və AFR-in İkinci dünya müharibəsindən sonrakı tarixinin ümumi cəhətləridir.

***Doğru cavab:*** Fransa və AFR

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 51 saylı test tapşırığı**
**D variantı 43 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




a. Rusiya çarının yeganə müsəlman yavəri olmuşdur.
b. Birinci dünya müharibəsində rus ordusunda xidmət etmişdir.
c. Rusiya paytaxtının toplarla müdafiəsinə rəhbərlik etmişdir.
d. İlk azərbaycanlı hərbi təyyarəçi olmuşdur.
e. Döyüş şücaətinə görə brilyantla bəzədilmiş Georgi silahı ilə təltif edilmişdir.

A) 1 – d, e; 2 – c; 3 – a; 4 – b
B) 1 – c; 2 – a; 3 – d; 4 – b, e
C) 1 – a; 2 – b, d; 3 – c; 4 – e
D) 1 – b; 2 – a; 3 – d; 4 – c
E) 1 – c; 2 – e; 3 – a; 4 – b

***Mövzu:*** Azərbaycan Birinci dünya müharibəsi illərində
***Sinif:*** 9, 11
***İzah:*** Rusiya çarının yeganə müsəlman yavəri Hüseyn xan Naxçıvanski olmuşdur. Əliağa Şıxlinski, Səməd bəy Mehmandarov və Hüseyn xan Naxçıvanski Birinci dünya müharibəsində rus ordusunda xidmət etmişdir. Rusiya paytaxtının toplarla müdafiəsinə Əliağa Şıxlinski rəhbərlik etmişdir. İlk azərbaycanlı hərbi təyyarəçi Fərrux ağa Qayıbov olmuşdur. Səməd bəy Mehmandarov döyüş şücaətinə görə brilyantla bəzədilmiş Georgi silahı ilə təltif edilmişdir.
***Doğru cavab:*** 1 – c; 2 – e; 3 – a; 4 – b

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

XVI əsrin ikinci yarısı Osmanlı dövləti üçün səciyyəvi idi:

A) Köprülü Mehmet paşanın islahatlar keçirməsi
B) Ağqoyunlu qoşunlarının məğlub edilməsi
C) Səfəvi dövləti ilə yeni müharibənin başlanması
D) Vyana şəhərinin mühasirəyə alınması
E) Misir Məmlük sultanlığına son qoyulması

***Mövzu:*** Osmanlı dövləti XIV-XVI əsrlərdə
***Sinif:*** 7, 10
***İzah:*** XVI əsrin ikinci yarısında Osmanlı dövləti Ağqoyunlu dövlətini məğlub etməmişdir. Köprülü Mehmet paşa XVII əsrin ikinci yarısında islahatlar keçirmişdir. Səfəvi dövləti ilə Osmanlı dövləti arasında yeni müharibə XVI əsrin ikinci yarısında, yəni 1578-ci ildə başlanmışdır. Osmanlı qoşunları Vyana şəhərini 1529-cu il və 1683-cü illərdə mühasirəyə almışdır. Misir Məmlük sultanlığına XVI əsrin əvvəllərində sultan I Səlimin (1512-1520) hakimiyyəti dövründə son qoyulmuşdur.

***Doğru cavab:*** Səfəvi dövləti ilə yeni müharibənin başlanması

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 47 saylı test tapşırığı**
**C variantı 44 saylı test tapşırığı**
**D variantı 52 saylı test tapşırığı**

Xəritədə ərazisi ulduzla qeyd olunmuş rayona aid olanları müəyyən edin.



1. Ərazisində Paleolit dövrünə aid qədim abidə yerləşir
2. 8 noyabr 2020-ci ildə Azərbaycan ordusu tərəfindən düşmən işğalından azad edilmişdir
3. Ərazisində Orta Tunc dövrünə aid Göytəpə şəhər tipli yaşayış məskəni yerləşir
4. Ərazisində Erkən Tunc dövrünə aid Sərkərtəpə abidəsi yerləşir
5. 2020-ci il noyabrın 25-də düşmən işğalından azad edilmişdir

A) 2, 4 B) 1, 5 C) 3, 5 D) 1, 4 E) 2, 3

***Mövzu:*** Azərbaycan mədəniyyəti
***Sinif:*** 6, 9, 11
***İzah:*** Xəritədə ərazisi ulduzla göstərilən ərazi Kəlbəcər rayonudur. Ərazisində Paleolit dövrünə aid qədim Zar abidəsi yerləşir. 8 noyabr 2020-ci ildə Azərbaycan ordusu tərəfindən düşmən işğalından azad edilmiş ərazimiz Şuşa rayonudur. Orta tunc dövrünə aid Göytəpə şəhər tipli yaşayış məskəni Urmiya ətrafında yerləşir. Erkən tunc dövrünə aid Sərkərtəpə abidəsi Xaçmazda yerləşir. Kəlbəcər rayonu 2020-ci il noyabrın 25-də düşmən işğalından azad edilmişdir.

***Doğru cavab:*** 1, 5

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 49 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Əsası Kəngərli tayfasının başçısı tərəfindən qoyulmuş bu xanlıq Zəngəzurdan Araz çayı vadisinə qədər olan əraziləri əhatə etmişdir. XVIII əsrin 80-ci illərində xanlıqda hakimiyyət uğrunda mübarizə daha da güclənmişdi. İkinci Rusiya-Qacarlar müharibəsi zamanı rus qoşunları tərəfindən işğal edilmişdir.
Mətndə haqqında bəhs edilən xanlıqla İrəvan xanlığının ümumi cəhətlərini müəyyən edin.

1. Müəyyən müddət Qarabağ xanlığından asılı olması
2. Rusiya ilə Georgiyevsk müqaviləsini imzalaması
3. Keçmiş Çuxursəəd bəylərbəyliyinin ərazisində yaranması

4. Türkmənçay müqaviləsinə əsasən Qacarların tərkibində qalması

A) 2, 3 B) 1, 2 C) 2, 4 D) 1, 3 E) 3, 4

***Mövzu:*** Azərbaycan XVIII-XIX əsrin əvvəllərində, Xanlıqlar dövrü
***Sinif:*** 8, 10
***İzah:*** Mətndə haqqında bəhs edilən Naxçıvan xanlığının İrəvan xanlığı ilə ümumi cəhətlərinə müəyyən müddət Qarabağ xanlığından asılı vəziyyətdə olmaları və keçmiş Çuxursəəd bəylərbəyliyinin ərazisində yaranmaları aiddir. Hər iki xanlıq Rusiya ilə Georgiyevsk müqaviləsini imzalamayıblar. 1827-ci ildə Rusiya tərəfindən işğal edilmiş hər iki xanlıq Türkmənçay müqaviləsinə əsasən bu dövlət tərəfindən ilhaq edilmişdir.
***Doğru cavab:*** 1, 3

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 52 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

XIII əsrin 30-cu illərinin sonu – 50-ci illərinin ortaları Azərbaycan tarixi üçün səciyyəvidir:

A) Əmir Teymurun canişinləri tərəfindən idarə olunması
B) Hülakü hökmdarı Qazan xan tərəfindən islahatlar keçirilməsi
C) Ali monqol xaqanlığının canişinləri tərəfindən idarə olunması
D) Qızıl Ordu xanı Toxtamışın yürüşlərinə məruz qalması
E) Cəlairilər dövlətinin hakimiyyətinin qəbul edilməsi

***Mövzu:*** Azərbaycan monqol yürüşləri dövründə
***Sinif:*** 7, 10
***İzah:*** Hülakü hökmdarı Qazan xan XIII əsrin sonu – XIV əsrin əvvəllərində islahatlar keçirmişdi. Azərbaycan XIV əsrin sonunda Qızıl Ordu xanı Toxtamışın yürüşlərinə məruz qalmışdı. 1239-1256-cı illərdə Ali monqol xaqanlığının canişinləri tərəfindən idarə olunmuşdur. Əmir Teymurun Azərbaycana yürüşləri XIV əsrin sonlarında baş vermişdir. Azərbaycanda Cəlairilər dövlətinin hakimiyyəti 1359-cu ildən başlamışdır.

***Doğru cavab:*** Ali monqol xaqanlığının canişinləri tərəfindən idarə olunması

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 46 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

XIX əsrin 50-ci illəri Şimali Azərbaycan tarixi üçün səciyyəvidir:

A) dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi
B) hər bir kəndliyə 5 desyatin torpağın verilməyə başlanması
C) kəndlilərin feodal asılılığından azad edilməsi
D) kəndlilərin vergi və mükəlləfiyyətlərinin ləğv edilməsi
E) təhkimçilik hüququnun ləğv edilməsi

***Mövzu:*** Azərbaycan XIX əsrin 30-50-ci illərində
***Sinif:*** 9, 11
***İzah:*** Dövlət kəndlilərinin köçmək hüququ 1853-cü ildə ləğv edildiyi üçün doğru cavabdır. 1846-cı il reskriptinə əsasən hər bir kəndliyə 5 desyatin torpaq verilməyə başlanmışdı. Kəndlilər feodal asılılığından 1870-ci il əsasnaməsinə əsasən azad edilmişdir. Kəndlilərin vergi və mükəlləfiyyətlərinin ləğv edilməsi olmayıb. Təhkimçilik hüququnun ləğv edilməsi Şimali Azərbaycana aid deyil.
***Doğru cavab:*** dövlət kəndlilərinin köçmək hüququnun ləğv edilməsi

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 48 saylı test tapşırığı**
**D variantı 51 saylı test tapşırığı**

Sxemi tamamlayın.




A) xərac, cizyə B) iqta, vəqf C) xaraq, gezit
D) malcəhət, bəhrə E) divan, mülk

***Mövzu:*** Azərbaycan Xilafət tərkibində
***Sinif:*** 7-10
***İzah:*** Azərbaycanda Xilafət dövründə malcəhət və bəhrə vergiləri mövcud olmamışdır. Divan və mülk torpaq mülkiyyəti formalarıdır. Həmçinin, iqta və vəqf torpaq mülkiyyəti formalarıdır. Xərac və cizyə vergiləri Ərəb xilafəti dövründə meydana gəlmişdir. Xaraq və gezit vergiləri isə Sasani dövlətinin dövrünə aiddir.
***Doğru cavab:*** xərac, cizyə

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 42 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Azərbaycan Xalq Cümhuriyyətinə aid hadisə və nəticə əlaqələrinin uyğunluğunu müəyyən edin.

| № | *Hadisə* | *Nəticə* |
|---|---|---|
| 1. | Müəssislər Məclisinə seçkilər haqqında əsasnamənin qəbul edilməsi | Parlament fəaliyyətə başladı |
| 2. | Bakının işğaldan azad edilməsi | Milli Şura fəaliyyətini dayandırdı |
| 3. | Mudros müqaviləsinin imzalanması | Osmanlı hərbi qüvvələri Naxçıvanı tərk etdi |
| 4. | Əsgəran yaxınlığında döyüşün baş verməsi | Milli ordumuzun hissələri erməni dəstələrini məğlubiyyətə uğratdı |

A) 2, 4 B) 1, 2 C) 2, 3 D) 3, 4 E) 1, 3

***Mövzu:*** Azərbaycan Xalq Cümhuriyyəti
***Sinif:*** 9, 11
***İzah:*** Azərbaycan Xalq Cümhuriyyətində Müəssislər Məclisinə seçkilər haqqında əsasnamənin qəbul edilməsi 1919-cu il tarixinə aiddir, ancaq Parlament fəaliyyətə 1918-ci ildə başlamışdır. Bakının işğaldan azad edilməsi Milli Şuranın fəaliyyətinin dayandırmasının səbəbi olmamışdır. Mudros müqaviləsinin imzalanması nəticəsində Osmanlı hərbi qüvvələri Naxçıvanı tərk etmişdi. Əsgəran yaxınlığında

döyüşün nəticəsində Milli ordumuzun hissələri erməni dəstələrini məğlubiyyətə uğratmış
dı.

*Doğru cavab:* 3, 4

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 48 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 47 saylı test tapşırığı**

Qaraqoyunlu hökmdarı Qara Yusif və Səfəvi şahı I Təhmasibin oxşar cəhəti:
A) Teymurilər dövləti ilə müharibə aparmaları
B) Osmanlı dövləti ilə sülh müqaviləsi imzalamaları
C) Şirvanşahlar dövləti ilə müharibə aparmaları
D) yeni dövlətin əsasını qoymaları
E) Avropa dövlətləri ilə hərbi ittifaq yaratmaları

*Mövzu:* Azərbaycan XV-XVI əsrlərdə
*Sinif:* 7, 10
*İzah:* Səfəvi şahı I Təhmasib Teymurilər dövləti ilə müharibə aparmamışdır. Qara Yusif Osmanlı dövləti ilə sülh müqaviləsi imzalamamışdır. Qara Yusif 1412-ci ildə, I Təhmasib 1538-ci ildə Şirvanşahlar dövləti ilə müharibə aparmışdır. I Təhmasib yeni dövlətin əsasını qoymamışdır. Avropa dövlətləri ilə hərbi ittifaq yaradılması Qara Yusif və şah I Təhmasibin oxşar cəhətlərinə aid deyil.
*Doğru cavab:* Şirvanşahlar dövləti ilə müharibə aparmaları

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Hadisələrdən hansılarının yerini dəyişdikdə düzgün xronoloji ardıcıllıq alınır?
1. S.C. Pişəvərinin başçılığı ilə Milli hökumətin yaradılması
2. Ş.M. Xiyabaninin başçılığı ilə Milli hökumətin yaradılması
3. Dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına başlanılması
4. Azərbaycan SSR-də Konstitusiyaya dövlət dilinin Azərbaycan dili olması haqqında maddənin əlavə edilməsi

A) 1 və 2 B) 1 və 3 C) 3 və 4
D) 2 və 4 E) 2 və 3

*Mövzu:* Azərbaycan XX əsrin 20-80-ci illərdə
*Sinif:* 9, 11
*İzah:* S. C. Pişəvərinin başçılığı ilə Milli hökumət 1945-ci ildə yaradılmışdı. Ş. M. Xiyabaninin başçılığı ilə Milli hökumət 1920-ci ildə yaradılmışdı. Dünyada ilk dəfə olaraq Azərbaycanda açıq dənizdə neft çıxarılmasına 1948-ci ildə başlanılmışdı. Azərbaycan SSR-də Konstitusiyaya dövlət dilinin Azərbaycan dili olması haqqında maddə 1956-ci ildə əlavə edilmişdir.

*Doğru cavab:* 1 və 2

**A variantı 43 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 48 saylı test tapşırığı**

XIX əsrin ikinci yarısında Şimali Qafqaz və Mərkəzi Asiya tarixinə aid olan ümumi cəhət:
A) İngiltərənin nüfuz dairəsinə daxil olması
B) Rusiya dövləti tərəfindən işğal edilməsi
C) Osmanlı dövlətinin tərkibinə daxil edilməsi
D) Hərbi-dini dövlətin – imamətin yaranması
E) P. Stolıpinin torpaq islahatının keçirilməsi

*Mövzu:* Rusiya
*Sinif:* 9, 11
*İzah:* P. Stolıpinin torpaq islahatının keçirilməsi XX əsrin əvvəllərinə aiddir. XIX əsrin ikinci yarısında Rusiya Şimali Qafqaz və Mərkəzi Asiyanı işğal etmişdir. XIX əsrin ikinci yarısında Şimali Qafqaz və Mərkəzi Asiya Osmanlı dövlətinin tərkibinə daxil edilməmiş, həmçinin İngiltərənin nüfuz dairəsinə daxil olmayıblar. Hərbi-dini dövlət – imamətin yaranması yalnız Şimali Qafqazın tarixinə aiddir.
*Doğru cavab:* Rusiya dövləti tərəfindən işğal edilməsi

**A variantı 44 saylı test tapşırığı**
**B variantı 41 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 49 saylı test tapşırığı**

XVII əsrdə baş vermiş Səfəvi-Osmanlı müharibələrinə aid ***deyil***.
A) Səfəvi dövlətinin Hörmüzü azad etməsi
B) Osmanlı-Krım hərbi qüvvələrinin məğlubiyyətə uğradılması
C) Qəsri-Şirin sülh müqaviləsinin imzalanması
D) Şah I Abbasın Təbrizi azad etməsi
E) Sufiyan adlanan yerdə baş verən döyüşdə Səfəvi qoşunlarının qalib gəlməsi

*Mövzu:* Azərbaycan Səfəvilər dövləti XVII əsrdə
*Sinif:* 8-10
*İzah:* Səfəvi dövləti Hörmüzü Portuqaliya ilə mübarizə nəticəsində azad etmişdir. Səfəvilər Osmanlı-Krım hərbi qüvvələrini 1618-ci ildə baş verən Sınıq körpü döyüşündə məğlubiyyətə uğratmışdır. 1639-cu ildə Qəsri-Şirin sülh müqaviləsinin imzalanması ilə Səfəvi-Osmanlı müharibəsi başa çatmışdır. Şah I Abbas 1603-cü ildə Təbrizi osmanlılardan azad etmişdir. 1605-ci ildə Sufiyan adlanan yerdə baş verən döyüşdə Səfəvi qoşunları Osmanlı dövlətinə qalib gəlmişdir.
*Doğru cavab:* Səfəvi dövlətinin Hörmüzü azad etməsi

**A variantı 45 saylı test tapşırığı**
**B variantı 50 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 45 saylı test tapşırığı**

Eldənizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvanın fəaliyyətinə aid ***deyil***.
A) Təbrizin Ağsunqurilərdən alınması
B) Paytaxtın Naxçıvan şəhərindən köçürülməsi
C) İri səlcuq əmirlərinin müqavimətinin qırılması
D) Gürcü feodallarının hücumlarının qarşısının alınması
E) Sultan titulunun qəbul edilməsi

*Mövzu:* Azərbaycan Atabəylər dövləti
*Sinif:* 7, 10
*İzah:* Eldənizlər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan sultan titulu qəbul etməmişdir. Distraktorlarda verilmiş iri səlcuq əmirlərinin müqavimətinin qırılması,

paytaxtın Naxçıvan şəhərindən köçürülməsi və gürcü feodallarının hücumlarının qarşısının alınması Məhəmməd Cahan Pəhləvanın fəaliyyətinə aidddir.

***Doğru cavab:*** Sultan titulunun qəbul edilməsi

**A variantı 46 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Xəzər xaqanlığından fərqli olaraq:

| *1. Uyğur xaqanlığı* | *2. Qaraxanlı dövləti* |
|---|---|
| a. VII əsrdə meydana gəlmişdi<br>b. Sasani dövlətinə qarşı mübarizə aparmışdı<br>c. Çin imperatorundan ipəklə xərac almışdı | a. Ərəb xilafəti ilə mübarizə aparmışdı<br>b. XI əsrdə iki yerə parçalanmışdı<br>c. Göytürk xaqanlığının parçalanması nəticəsində yaranmışdı |

A) 1 – b, c; 2 – a B) 1 – a, b; 2 – c C) 1 – a; 2 – c
D) 1 – b; 2 – a, b E) 1 – c; 2 – b

***Mövzu:*** Türk dövlətləri
***Sinif:*** 7, 10
***İzah:*** Uyğur xaqanlığının Xəzər xaqanlığından fərqli cəhəti Çin imperatorundan xərac alması olmuşdu. Qaraxanlı dövləti Xəzər xaqanlığından fərqli olaraq XI əsrdə (1042) iki yerə parçalanmışdır. Xəzər xaqanlığı VII əsrdə meydana gəldiyi üçün bu bənd oxşar ola bilməz. Uyğur xaqanlığı Sasanilər dövlətinə qarşı mübarizə aparmamışdır. Qaraxanlı dövləti Ərəb xilafəti ilə mübarizə aparmamışdır. Göytürk xaqanlığı VI əsrdə parçalanmış, Qaraxanlı dövləti isə IX əsrdə yaranmışdır.
***Doğru cavab:*** 1 – c; 2 - b

**A variantı 47 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 50 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Roma sərkərdəsi Pompeyin Albaniyaya hücum etməkdə məqsədi:
A) Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yollarını ələ keçirmək
B) Albaniyanın Selevkilərdən asılılığına son qoymaq
C) Mərkəzi Asiyanın işğalını başa çatdırmaq
D) Karra şəhəri yaxınlığında baş verən döyüşdəki məğlubiyyətin əvəzini çıxmaq
E) Dərbənd istiqamətində irəliləyib alan tayfalarının yürüşlərinin qarşısını almaq

***Mövzu:*** Azərbaycan ərazisində qədim dövlətlər
***Sinif:*** 6, 10
***İzah:*** Albaniya Selevkilərdən asılı vəziyyətdə olmamışdır. Karra şəhəri yaxınlığındakı baş verən döyüş e.ə. 53-cü ildə, yəni Roma sərkərdəsi Pompeyin Albaniyaya hücumundan sonra baş verdiyi üçün doğru ola bilməz. Alan tayfalarının yürüşləri Roma sərkərdəsi Pompeyin yürüşündən daha sonra başlandığı üçün onun məqsədi Dərbənd istiqamətində irəliləyib bu yürüşlərin qarşısını almaq olmamışdır. Roma sərkərdəsi Pompey Mərkəzi Asiyaya yürüş etməmişdir.
Pompeyin Albaniyaya hücum etməkdə məqsədi Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yollarını ələ keçirmək olmuşdur.
***Doğru cavab:*** Hindistanla Qara dəniz sahillərini birləşdirən ticarət yollarını ələ keçirmək

**A variantı 48 saylı test tapşırığı**
**B variantı 45 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

II Qarabağ müharibəsi (Vətən müharibəsi) dövrünə aid ***deyil***.
A) Aldadıcı taktika ilə Ermənistanın hava hücumundan müdafiə sistemlərinin məhv edilməsi
B) Hadrut qəsəbəsinin azad edilməsi ilə Şuşaya hücum üçün əlverişli şəraitin yaranması
C) BMT Təhlükəsizlik Şurasının ölkəmiz əleyhinə qətnamə qəbul etməsi
D) “Qarabağ mücrüsü” adlanan plan nəticəsində ordumuzun canlı qüvvə itkisinin minimuma endirilməsi
E) Azərbaycan istehsalı olan Pilotsuz Uçuş Aparatından uğurla istifadə edilməsi

***Mövzu:*** İkinci Qarabağ müharibəsi (Vətən müharibəsi)
***Sinif:*** 9, 11
***İzah:*** II Qarabağ müharibəsi (Vətən müharibəsi) dövründə Azərbaycan istehsalı olan Pilotsuz Uçuş Aparatından uğurla istifadə edilmişdir. Aldadıcı taktika ilə Ermənistanın hava hücumundan müdafiə sistemləri məhv edilmişdir. BMT Təhlükəsizlik Şurası ölkəmiz əleyhinə qətnamə qəbul etməmişdir. Hadrut qəsəbəsinin azad edilməsi ilə Şuşaya hücum üçün əlverişli şərait yaranmışdır. “Qarabağ mücrüsü” adlanan plan nəticəsində ordumuzun canlı qüvvə itkisi minimuma endirilmişdir.
Beləliklə, II Qarabağ müharibəsi (Vətən müharibəsi) dövründə BMT Təhlükəsizlik Şurası ölkəmiz əleyhinə qətnamə qəbul etmədiyi üçün doğru cavabdır.
***Doğru cavab:*** BMT Təhlükəsizlik Şurasının ölkəmiz əleyhinə qətnamə qəbul etməsi

**A variantı 49 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 45 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

VII əsrin 40-cı illərindən fərqli olaraq, 50-ci illəri Albaniya dövləti üçün səciyyəvi idi:
A) Xəzər xaqanlığı ilə müqavilə imzalanması
B) Xilafətə verilən vergilərin üçdə bir qədər azaldılması
C) Daxili müstəqilliyinin ləğv edilməsi
D) Sasani dövləti ilə sülh müqaviləsinin imzalanması
E) Bizans imperatoru ilə ittifaqın yaradılması

***Mövzu:*** Azərbaycan III – VII əsrin 1-ci yarısında
***Sinif:*** 7, 10
***İzah:*** Sualın şərtində verilmiş tarixlərdə Albaniya Sasani dövləti ilə sülh müqavilsəsi imzalamamışdır. Albaniyanın daxili müstəqilliyi VIII əsrin əvvəllərində ləğv edilmişdir. Xilafətə verilən vergilərin üçdə bir qədər azaldılması 667-670-ci illərdə Albaniya hökmdarı Cavanşirin xəlifə ilə görüşünün nəticəsinə aiddir. Bizans imperatoru ilə xilafətə qarşı ittifaq 654-cü ildə yaradılmışdır. Xəzər xaqanlığı ilə müqavilə VII əsrin 60-cı illərində imzalanmışdır.
***Doğru cavab:*** Bizans imperatoru ilə ittifaqın yaradılması

**A variantı 50 saylı test tapşırığı**
**B variantı 52 saylı test tapşırığı**
**C variantı 49 saylı test tapşırığı**

**D variantı 50 saylı test tapşırığı**

Heydər Əliyevin birinci prezidentliyi dövrünə aiddir:

1. Milli valyuta – manatın dövriyyəyə buraxılması
2. Strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsinin azad edilməsi
3. “Torpaq islahatı haqqında” Qanun qəbul edilməsi
4. Azərbaycan Respublikasının BMT-yə üzv qəbul olunması

A) 1, 4 B) 2, 4 C) 1, 3 D) 3, 4 E) 2, 3

***Mövzu:*** Müstəqilliyin bərpa olunması, XX əsrin sonları-XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının daxili və xarici siyasəti
***Sinif:*** 9, 11
***İzah:*** Heydər Əliyevin birinci prezidentliyi dövrü 1993-1998-ci illəri əhatə etmişdir. Milli valyuta – manat 1992-ci ildə dövriyyəyə buraxılmışdır. Strateji əhəmiyyət daşıyan Horadiz qəsəbəsi 1994-cü ildə azad edilmişdir. “Torpaq islahatı haqqında” Qanun 1996-cı ildə qəbul edilmişdir. Azərbaycan Respublikası 1992-ci ildə BMT-yə üzv qəbul olunmuşdur.
***Doğru cavab:*** 2, 3

**A variantı 51 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 47 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Xəritədə rəqəmlərlə verilən ərazilər üçün doğru ***olmayan*** fikri müəyyən edin.




A) 5 – Bizans imperatoru Yustinian tərəfindən işğal edilmişdi
B) 2 – Frank hökmdarı Hlodviq tərəfindən işğal olunmuşdu
C) 4 – Bizans imperiyasının paytaxtı olmuşdu
D) 1 – VIII əsrin əvvəllərində ərəb qoşunları tərəfindən tutulmuşdu
E) 3 – Bizans imperiyası üzərində qələbə nəticəsində ərəb orduları tərəfindən fəth olunmuşdu

***Mövzu:*** Avropa orta əsrlərdə
***Sinif:*** 7, 10
***İzah:*** Xəritədə 2 rəqəmi ilə verilən ərazi Hlodviqin dövründə işğal olunmamışdı. Xəritədə 1 rəqəmi ilə verilən ərazi (Pireney yarımadası) VIII əsrin əvvəllərində ərəb qoşunları tərəfindən tutulmuşdu. 5 rəqəmi ilə verilən Şimali Afrikadakı Vandal krallığının ərazisi Bizans imperatoru Yustinian tərəfindən işğal edilmişdi. 4 rəqəmi ilə verilmiş ərazi Bizans imperiyasının paytaxtı Konstantinopoldur. VII əsrdə Bizans imperiyası üzərində qələbə qazanan ərəb orduları Misiri (3 rəqəmi ilə verilmiş ərazi) ələ keçirmişdi.
***Doğru cavab:*** 2 – Frank hökmdarı Hlodviq tərəfindən işğal olunmuşdu

**A variantı 52 saylı test tapşırığı**
**B variantı 51 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

*XIX əsrin 20-ci illərində Şimali Azərbaycanın işğalını başa çatdırdıqdan sonra çar Rusiyası ölkəmizdə xammal istehsalının artırılmasına çalışırdı. Bununla bərabər, hər hansı bir məhsulun tam istehsalının Azərbaycanda həyata keçirilməsini istəmirdi. Çünki buradan ucuz xammal alıb, onu mərkəzi quberniyalarda son məhsula çevirib yenidən ölkəmizdə baha qiymətə satmaq çar Rusiyasına böyük qazanc gətirirdi.*

Verilənlərə əsasən çar Rusiyası nəyə nail olmaq istəyirdi?

1. Neft sənayesində xarici kapitalın üstünlüyünün qarşısını almağa
2. Müstəmləkəçi iqtisadi siyasəti tətbiq etməyə
3. Şimali Azərbaycanda sənaye çevrilişinin qarşısını almağa
4. Neft sənayesində iltizam sisteminin ləğv edilməsinə
5. Ölkəmizi özünün ucuz xammal bazasına çevirməyə

A) 1, 5 B) 2, 5 C) 2, 4 D) 1, 3 E) 3, 4

***Mövzu:*** Azərbaycan XIX əsrin 30-50-ci illərində
***Sinif:*** 9, 11
***İzah:*** Verilənlərə əsasən çar Rusiyası XIX əsrin 20-ci illərində Şimali Azərbaycanın işğalından sonra müstəmləkəçi iqtisadi siyasət həyata keçirir və ölkəmizi özünün ucuz xammal bazasına çevirməyə nail olmaq istəyirdi. Neft sənayesində xarici kapitalın üstünlüyünün və sənaye çevrilişinin baş verməsinin qarşısını almaq, iltizam sistemini ləğv etmək mətndə verilən tarixi proseslə səbəb-nəticə baxımdan uyğun deyil.
***Doğru cavab:*** 2, 5

**A variantı 53 saylı test tapşırığı**
**B variantı 55 saylı test tapşırığı**
**C variantı 54 saylı test tapşırığı**
**D variantı 55 saylı test tapşırığı**

Neolit və Eneolit dövrlərinə aid oxşar cəhətlər:

1. Əkinçilikdə toxadan istifadə edilməsi
2. İlkin şəhər məskənlərinin mövcud olması
3. Saxsı qabların hazırlanması
4. Süni suvarma sistemindən istifadə olunması
5. Təsərrüfatda daş alətlərdən istifadə edilməsi

***Mövzu:*** Azərbaycan ərazisində ibtidai icma cəmiyyəti
***Sinif:*** 6, 10
***İzah:*** Əkinçilikdə toxadan istifadə Neolit və Eneolit dövrlərinə aid oxşar cəhətlərdəndir. İlkin şəhər məskənləri Orta Tunc dövründə meydana gəlmişdir. Saxsı qabların hazırlanması da Neolit və Eneolit dövrlərinə aid oxşar cəhətlərdir. Süni suvarma sistemindən Erkən Tunc dövründən istifadə olunmağa başlanmışdı. Təsərrüfatda daş alətlərdən istifadə edilməsi hər iki dövrün oxşar xüsusiyyətidir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 54 saylı test tapşırığı**
**B variantı 56 saylı test tapşırığı**
**C variantı 53 saylı test tapşırığı**
**D variantı 53 saylı test tapşırığı**

Xronoloji ardıcıllığı müəyyən edin.

1. Şirvanşahlar dövlətinin paytaxtının Bakı şəhərinə köçürülməsi
2. Böyük Səlcuq dövlətinin paytaxtının Rey şəhərinə köçürülməsi
3. Teymurilər dövlətinin paytaxtının Herat şəhərinə köçürülməsi
4. Osmanlı dövlətinin paytaxtının Bursa şəhərinə köçürülməsi

***Mövzu:*** Şirvanşahlar dövləti. Böyük Səlcuq, Osmanlı və Teymuri dövləti
***Sinif:*** 7, 10
***İzah:*** Şirvanşahlar dövlətinin paytaxtının Bakı şəhərinə köçürülməsi 1192-ci ildə, Böyük Səlcuq dövlətinin paytaxtının Rey şəhərinə köçürülməsi 1043-cü ildə, Teymurilər dövlətinin paytaxtının Herat şəhərinə köçürülməsi XV əsrin birinci yarısında, Şahruxun hakimiyyəti dövründə və Osmanlı dövlətinin paytaxtının Bursa şəhərinə köçürülməsi XIV əsrdə Orxan Qazinin dövründə (1326-1362) olmuşdur.
***Doğru cavab:*** 2, 1, 4, 3

**A variantı 55 saylı test tapşırığı**
**B variantı 54 saylı test tapşırığı**
**C variantı 55 saylı test tapşırığı**
**D variantı 56 saylı test tapşırığı**

Hadisə və nəticə əlaqələrinə aid uyğunluğu müəyyən edin.

| № | *Hadisə* | *Nəticə* |
|---|---|---|
| 1. | 1711-ci ildə Prut çayı sahilində sülh müqaviləsinin imzalanması | Rusiya Azov qalasını Osmanlı dövlətinə qaytardı |
| 2. | 1783-cü ildə Parisdə (Versalda) sülh müqaviləsinin imzalanması | İngiltərə ABŞ-nin müstəqilliyini tanıdı |
| 3. | Neyzbi döyüşünün baş verməsi | ABŞ-də "İstiqlaliyyət bəyannaməsi" qəbul edildi |
| 4. | II Yekaterinanın hakimiyyətə gəlməsi | Rusiyada mütləqiyyət quruluşu zəiflədi |
| 5. | XVII əsrdə Otuzillik müharibənin baş verməsi | Qərbi Avropada üstünlük İspaniyadan Fransaya keçdi |

***Mövzu:*** ABŞ, İngiltərə, Rusiya və Osmanlı XVII-XVIII əsrlərdə
***Sinif:*** 8, 10
***İzah:*** 1711-ci ildə Prut çayı sahilində sülh müqaviləsi imzalanması nəticəsində Rusiya Azov qalasını Osmanlı dövlətinə qaytardı. 1783-cü ildə Parisdə (Versalda) sülh müqaviləsinin imzalanması nəticəsində İngiltərə ABŞ-nin müstəqilliyini tanıdı. Neyzbi döyüşünün nəticəsində ABŞ-də "İstiqlaliyyət bəyannaməsi" qəbul edilməmişdir. II Yekaterinanın hakimiyyətə gəlməsi ilə Rusiyada mütləqiyyət quruluşu güclənmişdir. XVII əsrdə baş verən Otuzillik müharibə nəticəsində Qərbi Avropada üstünlük İspaniyadan Fransaya keçdi.
***Doğru cavab:*** 1, 2, 5

**A variantı 56 saylı test tapşırığı**
**B variantı 53 saylı test tapşırığı**
**C variantı 56 saylı test tapşırığı**
**D variantı 54 saylı test tapşırığı**

Rəvvadilər dövlətinin Şirvanşahlar dövləti ilə oxşar, Salarilər dövləti ilə fərqli xüsusiyyətlərini müəyyən edin.

1. Ərəb mənşəli sülalə tərəfindən yaradılmışdı
2. Böyük Səlcuq dövlətindən asılı olmuşdu
3. Slavyanların hücumuna məruz qalmışdı
4. Dəbil əmirliyini özünə birləşdirmişdi

***Mövzu:*** Şirvanşahlar, Salari, Rəvvadi dövlətləri
***Sinif:*** 7, 10
***İzah:*** Rəvvadilər və Şirvanşahlar dövləti ərəb mənşəli sülalələr tərəfindən yaradılmışdı. 1054-cü ildə Rəvvadilər, 1066-cı ildə Şirvanşahlar dövləti Böyük Səlcuq dövlətindən asılı vəziyyətə düşmüşdü. Salarilər dövləti 944-cü ildə slavyanların hücumuna məruz qaldığı üçün bu cavab doğru ola bilməz. Dəbil əmirliyini Rəvvadilər və Şirvanşahlar dövləti özünə birləşdirməmişdi.
***Doğru cavab:*** 1, 2

**A variantı 57 saylı test tapşırığı**
**B variantı 57 saylı test tapşırığı**
**C variantı 57 saylı test tapşırığı**
**D variantı 57 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. Otluqbeli döyüşü
2. Mərv döyüşü

a. Osmanlı dövləti
b. Qaraqoyunlu (Baharlı) dövləti
c. Səfəvi dövləti
d. Ağqoyunlu (Bayandurlu) dövləti
e. Cəlairilər dövləti

***Mövzu:*** Azərbaycan XV əsrdə və Səfəvi dövləti dövründə
***Sinif:*** 7, 10
***İzah:*** Otluqbeli döyüşü 1473-cü ildə Osmanlı və Ağqoyunlu (Bayandurlu) dövlətləri arasında baş vermişdir. Mərv döyüşü 1510-cu ildə Səfəvilərlə Şeybanilər arasında olmuşdur.
***Doğru cavab:*** 1-a, d; 2-c

E.ə. V yüzilliyin ikinci yarısında yunan şəhər-dövlətləri iki rəqib düşərgəyə bölündü. Tezliklə onlar arasında müharibə başlandı. Peloponnesin çoxsaylı ordusu Attikaya soxuldu və mərkəzi şəhəri viran etdi. Cənubluların hücumu qarşı tərəfi bütün Attika əhalisini şəhər divarlarının arxasına təxliyə etmək məcburiyyətində qoydu. Ağzına kimi dolmuş şəhərdə epidemiya başladı. Periklin ölməsi vəziyyəti daha da çətinləşdirdi. Müharibənin uzanması tərəflər üçün yaxşı bir şey vəd etmirdi.

**A variantı 58 saylı test tapşırığı**
**B variantı 58 saylı test tapşırığı**
**C variantı 58 saylı test tapşırığı**
**D variantı 58 saylı test tapşırığı**

Mənbədə bəhs olunan müharibədə qalib gələn dövlətin adını yazın.

***Mövzu:*** Avropa qədim dövrlərdə: Yunanıstan, Makedoniya

***Sinif:*** 6, 10
***İzah:*** E.ə. V yüzillikdə baş verən Afina-Sparta müharibəsi Sparta dövlətinin qələbəsi ilə bitmişdir.
***Doğru cavab:*** Sparta

**A variantı 59 saylı test tapşırığı**
**B variantı 59 saylı test tapşırığı**
**C variantı 59 saylı test tapşırığı**
**D variantı 59 saylı test tapşırığı**

Mənbədə bəhs olunan müharibənin başlanmasının bir siyasi (1) və bir iqtisadi (2) səbəbini yazın.
**Siyasi səbəb:** Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlərin olması
**İqtisadi səbəb:** Yunan şəhər-dövlətləri arasında çoxlu qənimət ələ keçirmək üçün uğrunda mübarizə;
dəniz ticarətində üstünlük qazanmaq üçün rəqabətin getməsi,
***Mövzu:*** Avropa qədim dövrlərdə: Yunanıstan, Makedoniya
***Sinif:*** 6, 10
***İzah:*** Müharibənin başlanmasının siyasi səbəbi siyasi sistemlər olan Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlərin olması idi. İqtisadi səbəbi isə yunan şəhər-dövlətləri arasında çoxlu qənimət ələ keçirmək uğrunda rəqabətin olması və dəniz ticarətində üstünlük qazanmaq uğrunda rəqabətin getməsi olmuşdur.

***Doğru cavab:***
Siyasi səbəb: Afina demokratiyası ilə Sparta oliqarxiyası arasında ziddiyyətlərin olması *və ya* siyasi sistemlər arasında ziddiyyətlər
İqtisadi səbəb: Yunan şəhər-dövlətləri arasında çoxlu qənimət ələ keçirmək uğrunda mübarizə;
dəniz ticarətində üstünlük qazanmaq üçün rəqabətin getməsi,

**A variantı 60 saylı test tapşırığı**
**B variantı 60 saylı test tapşırığı**
**C variantı 60 saylı test tapşırığı**
**D variantı 60 saylı test tapşırığı**

Haqqında bəhs olunan müharibənin mənbədə ***verilməyən*** iki nəticəsini yazın.
1. Yunan şəhər-dövlətlərində daxili ziddiyyətlər dərinləşdi.
2. Yunan şəhər-dövlətləri zəiflədi.
3. Sonralar yunan şəhər-dövlətləri Makedoniyanın hakimiyyəti altına düşdü.

***Mövzu:*** Avropa qədim dövrlərdə: Yunanıstan, Makedoniya
***Sinif:*** 6, 10
***İzah:*** Mənbədə bəhs olunan Afina-Sparta müharibəsinin nəticələrinə daxili ziddiyyətlərin dərinləşməsi, yunan şəhər-dövlətlərinin zəifləməsi və daha sonralar yunan şəhər-dövlətlərinin Makedoniyanın hakimiyyəti altına düşməsi aiddir.

***Doğru cavab:*** Yunan şəhər-dövlətlərində daxili ziddiyyətlər dərinləşdi;
Yunan şəhər-dövlətləri zəiflədi;
Sonralar yunan şəhər-dövlətləri Makedoniyanın hakimiyyəti altına düşdü.

# Ədəbiyyat

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

M.F. Axundzadənin "Aldanmış kəvakib" əsərinin obrazları ilə bağlı cədvəldəki doğru fikirləri müəyyən edin.

| *Yusif Sərrac* | *Şah Abbas* |
|---|---|
| 1. Atası onun molla olmasını istəsə də, ruhanilərin saxtakarlığını görəndən sonra din xadimi olmaq fikrindən daşınır.<br>2. Ruhanilərin dövlətdən asılılığını artırmaq üçün onlara xəzinədən maaş təyin edir.<br>3. Hakimiyyətini qorumaq üçün zindana saldırdığı saray adamlarının nüfuzundan istifadə etmək qərarına gəlir. | 4. Münəccimbaşının Yusif Sərrac haqqında verdiyi məlumatdan sonra onun ölümə layiq olduğunu qəbul edir.<br>5. Bəladan qurtulması üçün Mövlana Cəmaləddinin ona məsləhət gördüyü tədbiri tərəddüdsüz qəbul edir.<br>6. Sərdar Zaman xanın xahişi ilə münəccimbaşını edam etdirmir. |

A) 1, 2, 5, 6 B) 1, 2, 4 C) 1, 3, 5, 6
D) 2, 3, 4, 6 E) 3, 4, 5

***Mövzu:*** Mirzə Fətəli Axundzadə
***Sinif:*** 10
***İzah:*** 1. *Atası onun molla olmasını istəsə də, ruhanilərin saxtakarlığını görəndən sonra din xadimi olmaq fikrindən daşınır*; 2. *Ruhanilərin dövlətdən asılılığını artırmaq üçün onlara xəzinədən maaş təyin edir*; 5. *Bəladan qurtulması üçün Mövlana Cəmaləddinin ona məsləhət gördüyü tədbiri tərəddüdsüz qəbul edir*; 6. *Sərdar Zaman xanın xahişi ilə münəccimbaşını edam etdirmir* fikirləri doğrudur.
3. *Hakimiyyətini qorumaq üçün zindana saldırdığı saray adamlarının nüfuzundan istifadə etmək qərarına gəlir* fikri ***yanlışdır***. Yusif Sərrac saray adamlarını həbs etdirdikdən sonra onlarla heç bir əlaqə qurmur, onlardan hər hansı formada istifadəyə cəhd etmir. 4. *Münəccimbaşının Yusif Sərrac haqqında verdiyi məlumatdan sonra onun ölümə layiq olduğunu qəbul edir* fikri də ***yanlışdır***. Yusif Sərrac haqqında məlumatı mollabaşı Axund Səməd verir.
***Doğru cavab:*** 1, 2, 5, 6

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 66 saylı test tapşırığı**

Ə. Haqverdiyevin "Bomba" əsəri ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
1. Başqa millətdən olan vəzifə sahibləri ilə Azərbaycan mülkədarı qarşılaşdırılır.
2. Kərbəlayı Zalın nitqində təhrif olunmuş rus sözlərindən istifadə onun xarakterinin açılmasına kömək edir.
3. Arvadı və Kərbəlayı Zal arasında fikir ayrılığı yaşanır.
4. Pristav Kərbəlayı Zalı məzəmmət edir.

5. Kərbəlayı Zal xalqına xidmət etmək üçün vəzifədə qalmaq istəyir.

A) 2, 4 B) 3, 4 C) 1, 2 D) 3, 5 E) 1, 5

***Mövzu:*** Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü (Ə. Haqverdiyev)

***Sinif:*** 8

***İzah:*** 1. *Başqa millətdən olan vəzifə sahibləri ilə Azərbaycan mülkədarı qarşılaşdırılır* fikri ***yanlışdır***. Bu əsərdə, ümumiyyətlə, mülkədar obrazı yaradılmamışdır. 5. *Kərbəlayı Zal xalqına xidmət etmək üçün vəzifədə qalmaq istəyir* fikri də ***yanlışdır***. Kərbəlayı Zalın vəzifədə qalmaq istəməsinin səbəbi xalqa xidmət etmək deyil, öz mənafeyini güdməsidir.

2. *Kərbəlayı Zalın nitqində təhrif olunmuş rus sözlərindən istifadə onun xarakterinin açılmasına kömək edir;* 3. *Arvadı və Kərbəlayı Zal arasında fikir ayrılığı yaşanır*; 4. *Pristav Kərbəlayı Zalı məzəmmət edir* fikirləri doğrudur.

***Doğru cavab:*** 1, 5

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

H. Cavidin "İblis" əsəri ilə bağlı cədvəldəki uyğun fikirləri müəyyən edin.

| ***Doğrudur*** | ***Yanlışdır*** |
|---|---|
| 1. Arif yer üzündəki zülmləri görməmək üçün Allahdan onu göylərə qaldırmasını istəyir.<br>2. İxtiyar şeyx Arifə qəlbindəki nifrəti və qəzəbi boğmasa, özünü məhv edəcəyini bildirir.<br>3. Arif və Rəna meşədə haydutlarla qarşılaşanda onların köməyinə Vasif gəlir. | 4. İbn Yəmin Rənanı atasının qatilini tapacağına inandırır.<br>5. Arif yoldaşı olan sərrafı öldürüb qızıllarını ələ keçirdiyini etiraf edir.<br>6. İxtiyar şeyx Xavərin qatilindən intiqam almaq üçün İbn Yəmindən kömək istəyir. |

A) 1, 3, 5 B) 2, 4, 5 C) 2, 3, 6
D) 1, 4, 5 E) 1, 2, 6

***Mövzu:*** Hüseyn Cavid

***Sinif:*** 11

***İzah:*** **"Doğrudur"** sütunundan 1. *Arif yer üzündəki zülmləri görməmək üçün Allahdan onu göylərə qaldırmasını istəyir*; 2. *İxtiyar şeyx Arifə qəlbindəki nifrəti və qəzəbi boğmasa, özünü məhv edəcəyini bildirir* fikirləri cədvələ uyğundur. 3. *Arif və Rəna meşədə haydutlarla qarşılaşanda onların köməyinə Vasif gəlir* fikri ***yanlışdır***, deməli, cədvələ uyğun **deyil.**

**"Yanlışdır**" sütununda 4. *İbn Yəmin Rənanı atasının qatilini tapacağına inandırır* və 5. *Arif yoldaşı olan sərrafı öldürüb qızıllarını ələ keçirdiyini etiraf edir* fikirləri əsərdə öz əksini tapdığı üçün cədvələ uyğun **deyil**. 6. *İxtiyar şeyx Xavərin qatilindən intiqam almaq üçün İbn Yəmindən kömək istəyir* fikri ***yanlışdır***, çünki İxtiyar şeyx Elxandan kömək istəyir. Deməli, bu fikir cədvələ uyğundur**.**

***Doğru cavab:*** 1, 2, 6

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 75 saylı test tapşırığı**
**C variantı 77 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

"Ağıllı uşaq" nağılı ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Əhməd xanın verdiyi suallara cavab tapmaq üçün böyüklərdən məsləhət almağı lazım bilir.
2. Əhmədin nənəsi ağıllı qocalardan birinin şikəst olduğu üçün xanın adamları tərəfindən aparılmadığını deyir.
3. Xanın çobanı Əhmədə kömək etmək məqsədilə ona xanın sevimli heyvanı haqqında məlumat verir.
4. Kənd camaatı xanın suallarına cavab tapmaq üçün kənddə ağıllı və bacarıqlı uşaq hesab olunan Əhmədə müraciət edir.
5. Xan sualları cavablandırmaq üçün gələn Əhmədi görəndə əvvəlcə qəzəblənib onu cəzalandırmaq istəyir, lakin gətirdiyi keçini görəndən sonra bu fikrindən əl çəkir.
6. Kəndin qocaları tərəddüd etmədən, könüllü şəkildə xanın yanına getməyə razılaşırlar.

A) 1, 2, 5 B) 1, 3, 4, 5 C) 2, 3, 5, 6
D) 3, 4, 6 E) 1, 2, 4, 6

***Mövzu:*** Azərbaycan şifahi xalq yaradıcılığı

***Sinif:*** 6

***İzah:*** 1. *Əhməd xanın verdiyi suallara cavab tapmaq üçün böyüklərdən məsləhət almağı lazım bilir*; 2. *Əhmədin nənəsi ağıllı qocalardan birinin şikəst olduğu üçün xanın adamları tərəfindən aparılmadığını deyir* və 5. *Xan sualları cavablandırmaq üçün gələn Əhmədi görəndə əvvəlcə qəzəblənib onu cəzalandırmaq istəyir, lakin gətirdiyi keçini görəndən sonra bu fikrindən əl çəkir* fikirləri ***doğrudur***.
3. *Xanın çobanı Əhmədə kömək etmək məqsədilə ona xanın sevimli heyvanı haqqında məlumat verir* fikri ***yanlışdır***. Çoban Əhmədin əsl niyyətini bilmədən ona keçinin xanın sevimli heyvanı olması haqqında məlumat verir. 4. *Kənd camaatı xanın suallarına cavab tapmaq üçün kənddə ağıllı və bacarıqlı uşaq hesab olunan Əhmədə müraciət edir* fikri ***yanlışdır***. Nağılda belə bir müraciət edilmir, əksinə, kənd camaatı Əhmədin xanın suallarına cavab vermək istəyinə inamsız yanaşır. *6. Kəndin qocaları tərəddüd etmədən, könüllü şəkildə xanın yanına getməyə razılaşırlar* fikri də ***yanlışdır.*** Qocalar saraya yarıxoş, yarızor gedirlər.

***Doğru cavab:*** 1, 2, 5

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 78 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

N. Gəncəvinin "İskəndərnamə" əsərindəki obrazlarla bağlı uyğunluğu müəyyən edin.

1. Niqumaş
2. Ərəstu

a. İskəndərə var-dövlətə çox aludə olmamağı tövsiyə edir.
b. İskəndər üçün ilk nəsihətnaməni yazır.
c. İskəndərdən onun haqqına və sözünə hörmət göstərməsini xahiş edir.
d. İskəndərə misirlilərə kömək etməklə ad qazanacağını bildirir.
e. Ulduz falına baxaraq İskəndərin parlaq gələcəyi olacağını söyləyir.

A) 1 – c, d; 2 – a, b B) 1 – c, e; 2 – a, d
C) 1 – a, c; 2 – b, d D) 1 – e; 2 – b, d
E) 1 – a, b; 2 – e

***Mövzu:*** Nizami Gəncəvi

***Sinif:*** 10

***İzah:*** Tapşırıqdakı a. *İskəndərə var-dövlətə çox aludə olmamağı tövsiyə edir;* c. *İskəndərdən onun haqqına və sözünə hörmət göstərməsini xahiş edir* fikirləri Niqumaşa, b. *İskəndər üçün ilk nəsihətnaməni yazır* və d. *İskəndərə misirlilərə kömək etməklə ad qazanacağını bildirir* fikirləri isə Ərəstuya uyğundur. e. *Ulduz falına baxaraq İskəndərin parlaq gələcəyi olacağını söyləyir* fikri saray münəccimlərinə aid olduğu üçün təqdim olunmuş heç bir obraza aid ***deyil***.
***Doğru cavab:*** 1 – a, c; 2 – b, d

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 72 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

M.Ə. Sabirin “Əkinçi” əsəri ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Həmin dövrdəki zəhmət adamlarının güzəranı haqqında ümumi təsəvvür yaranır.
2. Mülkədarın kəndli ilə özünü müqayisə etməsi sosial təbəqələşmənin dərinliyini göstərir.
3. Çətin həyat şəraiti əkinçinin məğrurluğunu əlindən ala bilmir.
4. Bəzi təbiət hadisələri dözülməz dolanışığı olan əkinçinin vəziyyətini daha da ağırlaşdırır.
5. Əkinçinin məzlumluğu ilə mülkədarın azğınlığı ziddiyyət təşkil edir.
6. Mülkədar əkinçinin səbir kasasının daşacağından, etiraz edəcəyindən narahat olur.

A) 3, 4, 5 B) 1, 2, 4, 5 C) 2, 3, 4, 6 D) 1, 3, 6 E) 1, 2, 5, 6

***Mövzu:*** Mirzə Ələkbər Sabir
***Sinif:*** 8
***İzah:*** 1. *Həmin dövrdəki zəhmət adamlarının güzəranı haqqında ümumi təsəvvür yaranır*; *2. Mülkədarın kəndli ilə özünü müqayisə etməsi sosial təbəqələşmənin dərinliyini göstərir; 4. Bəzi təbiət hadisələri dözülməz dolanışığı olan əkinçinin vəziyyətini daha da ağırlaşdırır*; 5. *Əkinçinin məzlumluğu ilə mülkədarın azğınlığı ziddiyyət təşkil edir* fikirləri doğrudur. *3. Çətin həyat şəraiti əkinçinin məğrurluğunu əlindən ala bilmir* fikri ***yanlışdır***, çünki mülkədarın nitqindən bəlli olur ki, əkinçi məzlumdur, o, mülkədara yalvarır, onun qapısında boynunu burur. 6. *Mülkədar əkinçinin səbir kasasının daşacağından, etiraz edəcəyindən narahat olur* fikri də ***yanlışdır***. Zalımlığı və istismarçılığı ilə yadda qalan mülkədar belə bir qorxu keçirmir. O, əkinçinin itaətkar, fağır, müti bir insan olduğunu açıq-aşkar bilir.
***Doğru cavab:*** 1, 2, 4, 5

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

İ. Şıxlının “Dəli Kür” əsərindəki obrazlarla bağlı doğru fikirləri müəyyənləşdirin.

1. Kənd uşaqlarının Qori seminariyasında oxumasını istəməyən Molla Sadıq milli həmrəylik hissindən də məhrumdur.
2. Pristav yerli əhalinin milli mənafeyinə qarşı çarizmin təcavüzkar siyasətini yeridir.
3. Cahandar ağa Mələyi qaçırmaqla etdiyi səhvi başa düşmür və özünü haqlı sayır.
4. Şamxal yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsi kimi diqqəti cəlb edir.
5. Allahyar düşmənindən namərd üsullarla intiqam almağa çalışır.

A) 2, 5 B) 1, 2, 4 C) 2, 3, 4 D) 3, 4, 5 E) 1, 5

***Mövzu:*** İsmayıl Şıxlı
***Sinif:*** 11
***İzah:*** 2. *Pristav yerli əhalinin milli mənafeyinə qarşı çarizmin təcavüzkar siyasətini yeridir*; 5. *Allahyar düşmənindən namərd üsullarla intiqam almağa çalışır* fikirləri doğrudur.
1. *Kənd uşaqlarının Qori seminariyasında oxumasını istəməyən Molla Sadıq milli həmrəylik hissindən də məhrumdur* fikri ***yanlışdır***. Molla Sadıq mövhumatın, fanatizmin tərəfdarı olsa da, kənd əhalisinə məxsus meşənin çar tərəfindən qəsb edilməsinə etiraz səsini ucaldaraq milli həmrəylik nümayiş etdirir. 3. *Cahandar ağa Mələyi qaçırmaqla etdiyi səhvi başa düşmür və özünü haqlı sayır* fikri də ***yanlışdır***. Çünki o özünün daxili monoloqunda öz hərəkətini səhv kimi dəyərləndirir, yəni səhvini başa düşür, lakin bunu dilə gətirib etiraf etmir. 4. *Şamxal yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsi kimi diqqəti cəlb edir* fikri də ***yanlışdır.*** Əsərdə yeniliyi təcəssüm etdirən gəncliyin nümayəndəsi Əşrəfdir.
***Doğru cavab:*** 2, 5

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 69 saylı test tapşırığı**
**C variantı 71 saylı test tapşırığı**
**D variantı 67 saylı test tapşırığı**

“Həmzənin Qıratı qaçırması” (“Koroğlu” eposu) qoluna əsasən cədvəldəki ***uyğunsuzluqları*** müəyyən edin.

| Obraz | Obraz haqqında fikirlər |
|---|---|
| 1. Hasan paşa | Qıratı Koroğlunun əlindən çıxartması ilə lovğalanır. |
| 2. Qarı | Keçəl Həmzənin Qıratı qaçırtmasını igidlik hesab edir. |
| 3. Dona xanım | Bir qızdan ötrü Koroğlu kimi igidin atını oğurladığı üçün Həmzəni məzəmmət edir. |
| 4. Koroğlu | Qıratın buxovunun açarını Həmzəyə verdiyinə görə peşman olsa da, bunu dəlilərə etiraf etməkdən çəkinir. |
| 5. Həmzə | Koroğlu ilə qarşılaşdıqda ömrünü-gününü Hasan paşanın qapısında çürüdüb ona ilxıçılıq etdiyini söyləyir. |

A) 1, 2, 3 B) 4, 5 C) 1, 2, 4 D) 3, 4 E) 2, 3, 5

***Mövzu:*** “Koroğlu” eposu
***Sinif:*** 10
***İzah:*** 4. *Koroğlu – Qıratın buxovunun açarını Həmzəyə verdiyinə görə peşman olsa da, bunu dəlilərə etiraf etməkdən çəkinir* fikri ***yanlışdır.*** Koroğlu Həmzəyə Düratın buxovunun açarını verir. 5. *Həmzə – Koroğlu ilə qarşılaşdıqda ömrünü-gününü Hasan paşanın qapısında çürüdüb ona ilxıçılıq etdiyini söyləyir* fikri ***yanlışdır***. Həmzə Koroğlu ilə qarşılaşdıqda ömrünü-gününü “bəy-paşa qapısında” çürütdüyünü bildirir.
Digər obrazlarla bağlı verilən fikirlər doğrudur.

***Doğru cavab:*** 4, 5

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 62 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 75 saylı test tapşırığı**

B. Vahabzadənin "Vətəndaş" şeiri ilə bağlı ***yanlış*** fikri müəyyən edin.

*Şairə görə:*

A) həmvətənlər bir-birinin ağrısına ürəkdən yanmalıdırlar.
B) azadlıq uğrunda çarpışmayan insanların Vətən torpağında yaşamağa haqqı yoxdur.
C) Vətən övladları bir-birinə arxa, kömək olmalıdırlar.
D) insan Vətən qarşısında məsuliyyətini unutmamalıdır.
E) insan təklikdə deyil, Vətəninə güvəndikdə vətəndaş olur.

***Mövzu:*** Bəxtiyar Vahabzadə
***Sinif:*** 7
***İzah:*** Əsərdə *azadlıq uğrunda çarpışmayan insanların Vətən torpağında yaşamağa haqqı yoxdur* fikri diqqətə çatdırılmadığı üçün ***yanlış***, digər fikirlər şeirin müxtəlif misralarında öz əksini tapdığı üçün doğrudur.
***Doğru cavab:*** azadlıq uğrunda çarpışmayan insanların Vətən torpağında yaşamağa haqqı yoxdur.

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 76 saylı test tapşırığı**

S. Vurğunun "Vaqif" pyesindəki Şeyx obrazı ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.

1. Bir dəstə adamla birlikdə Vaqif və Əli bəyi edam yerinə gətirir.
2. Hücuma keçmiş Eldar tərəfindən vurularaq öldürülür.
3. Qarı ilə birlikdə Xuramanı Vaqifdən boşanaraq İbrahim xana ərə getməyə razı salır.
4. İbrahim xanın planı ilə Qacarın yanına casus kimi göndərilir.
5. Yaltaq, mənsəbpərəst və xəyanətkar obrazdır.
6. İbrahim xanın qaçma xəbərini Qacara bildirir.

A) 2, 4 B) 1, 4, 6 C) 2, 3, 6 D) 1, 3, 5 E) 4, 5

***Mövzu:*** Səməd Vurğun
***Sinif:*** 11
***İzah:*** 1. *Bir dəstə adamla birlikdə Vaqif və Əli bəyi edam yerinə gətirir; 3. Qarı ilə birlikdə Xuramanı Vaqifdən boşanaraq İbrahim xana ərə getməyə razı salır; 5. Yaltaq, mənsəbpərəst və xəyanətkar obrazdır;6. İbrahim xanın qaçma xəbərini Qacara bildirir* fikirləri Şeyx obrazı ilə bağlı doğru fikirlərdir.
2. *Hücuma keçmiş Eldar tərəfindən vurularaq öldürülür* fikri Şeyx obrazı üçün ***yanlışdır***, o, Əli bəy tərəfindən öldürülür. 4. *İbrahim xanın planı ilə Qacarın yanına casus kimi göndərilir* də Şeyxlə bağlı ***yanlış*** fikirdir. Çünki Şeyx İbrahim xan Dağıstana qaçdıqdan sonra öz təşəbbüsü ilə Qacarın yanına gəlir və ona yarınmağa çalışır.
***Doğru cavab:*** 2, 4

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 77 saylı test tapşırığı**
**C variantı 66 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

Q. Zakirlə M.P. Vaqif yaradıcılığının ortaq xüsusiyyətləri haqqında deyilən fikirlərdən biri ***yanlışdır***:

A) Yaradıcılığında qəzəl janrından da istifadə etmişdir.
B) Qoşmalarında tərənnüm olunan gözəl real insandır.
C) Aşıq şeiri janrlarından istifadə etmişdir.
D) Epik növdə əsərlər yaratmışdır.
E) İctimai motivli lirik şeir yazmışdır.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 10
***İzah:*** Test tapşırığında verilənlər içərisində *Epik növdə əsərlər yaratmışdır* fikri ***yanlışdır***, yəni hər iki sənətkarın yaradıcılığı üçün ortaq xüsusiyyət kimi dəyərləndirilə ***bilməz***. Q. Zakirdən fərqli olaraq, M.P.Vaqif epik əsər yazmamışdır. Təqdim olunmuş digər fikirlər Q. Zakir və M.P. Vaqif yaradıcılığının ortaq xüsusiyyətləridir.
***Doğru cavab:*** Epik növdə əsərlər yaratmışdır.

**A variantı 72 saylı test tapşırığı**
**B variantı 82 saylı test tapşırığı**
**C variantı 75 saylı test tapşırığı**
**D variantı 63 saylı test tapşırığı**

Mir Cəlalın "Açıq kitab" əsərinə əsasən cədvəldəki ***yanlış*** fikirləri müəyyən edin.

| Səbəb | Nəticə |
|---|---|
| 1. Rübabə Gəldiyevin briqadasından ayrılaraq Vahidin briqadasına qoşulur. | Gəldiyev Vahidi ləkələməyə çalışır. |
| 2. Diplom alandan sonra Gəldiyevin ilk tikinti işi qüsurlu olur. | Vəzirbəyli Gəldiyevin işinə irad tutur, onu hörmətdən salır. |
| 3. Vəzirbəyli Vahidin layihəsinin birinci mükafata layiq görüləcəyini düşünür. | "Açıq kitab" layihəsinin ikinci mükafata layiq görülməsi onu təəccübləndirir. |
| 4. Gəldiyev etdiyi oğurluğun üstünün açılmasından ehtiyat edir. | Surətini çıxardığı layihənin Vahidə məxsus nüsxəsini məhv edir. |
| 5. Vəzirbəyli ona göndərilən layihənin olduqca qüsurlu olduğunu müəyyən edir. | Layihə müəllifinin müəyyənləşdirilib işdən azad edilməsini doğru hesab edir. |

A) 3, 4 B) 2, 5 C) 1, 4 D) 1, 2 E) 3, 5

***Mövzu:*** Mir Cəlal
***Sinif:*** 11
***İzah:*** 3. *Vəzirbəyli Vahidin layihəsinin birinci mükafata layiq görüləcəyini düşünür – "Açıq kitab" layihəsinin ikinci mükafata layiq görülməsi onu təəccübləndirir* uyğunluğu ***yanlışdır.*** Vəzirbəyli Vahidin istedadlı gənc olduğunu düşünsə də, onun Vahidin layihəsinin neçənci mükafata layiq görüləcəyi barədə hər hansı bir düşüncəsinə yer verilmir. 4. *Gəldiyev etdiyi oğurluğun üstünün açılmasından ehtiyat edir – Surətini çıxardığı layihənin Vahidə məxsus nüsxəsini məhv edir* uyğunluğu ***yanlışdır***. Gəldiyev həmin nüsxəni məhv etmir, öz evində gizlədir. Səbəb-nəticə əlaqəsi ilə bağlı verilmiş digər uyğunluqlar doğrudur.
***Doğru cavab:*** 3, 4

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 81 saylı test tapşırığı**

**C variantı 63 saylı test tapşırığı**
**D variantı 69 saylı test tapşırığı**

N. Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsində yer alan əsas məsələlərə aid ***deyil***:

1. mütərəqqi və mürtəce qüvvələr arasında kəskin ziddiyyət
2. ailələr arasında ədavət, qan düşmənçiliyi
3. soykökündən uzaqlaşmanın acı nəticələri
4. tərəqqiyə, xoşbəxt həyata mane olan cəhalət və nadanlığın ifşası
5. aşağı təbəqənin nümayəndələrinə qarşı alçaldıcı münasibət

A) 1, 4, 5 B) 2, 3 C) 3, 5 D) 1, 3 E) 1, 2, 4

***Mövzu:*** Nəcəf bəy Vəzirov
***Sinif:*** 10
***İzah:*** 3. *soykökündən uzaqlaşmanın acı nəticələri* fikri ***yanlışdır***, bu əsərdəki hadisələr nadanlıq və cəhalətin acı nəticələri kimi təzahür edir. 5. *aşağı təbəqənin nümayəndələrinə qarşı alçaldıcı münasibət* fikri də əsərdə yer almamışdır. Rüstəm bəy nökərlərinə öz övladı kimi yanaşır, digər obrazlar da aşağı təbəqənin nümayəndələrinə qarşı alçaldıcı münasibət göstərmirlər.
Təqdim olunmuş digər fikirlər bu əsərdə öz əksini tapmış məsələlərdir.
***Doğru cavab:*** 3, 5

**A variantı 74 saylı test tapşırığı**
**B variantı 64 saylı test tapşırığı**
**C variantı 67 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

Cədvələ əsasən R. Rzanın əsərləri ilə bağlı uyğunluğu müəyyən edin.

| *"Çinar ömrü" şeiri ilə bağlı doğrudur* | *"Qızılgül olmayaydı" poeması ilə bağlı **yanlışdır*** |
|---|---|
| 1. Çinarın ölümü hələ onun ilk pöhrələrindən başlayır.<br>2. Müəllif hər kəsə çinar ömrü kimi şərəfli ömür arzu edir.<br>3. Çinar ömrü müdrik babaların ömrünə bənzədilir. | 4. Repressiya dövrünün sərt üzü üstüörtülü şəkildə təsvir olunur.<br>5. Müşfiqin şeirlərindən parçalar verilir.<br>6. Müəllifin xatirələri əsasında Müşfiqin daxili aləmi və xarakteri haqqında fikir formalaşır. |

A) 1, 2, 4 B) 1, 3, 5 C) 2, 4, 5, 6
D) 1, 3, 4 E) 2, 3, 5, 6

***Mövzu:*** Rəsul Rza
***Sinif:*** 9-11
***İzah:*** 1. *Çinarın ölümü hələ onun ilk pöhrələrindən başlayır* fikri doğrudur; 2. *Müəllif hər kəsə çinar ömrü kimi şərəfli ömür arzu edir* fikri ***yanlışdır***, yəni cədvələ uyğun ***deyil***. Müəllif "Bir belə çinar ömrü olsun deyirəm ömrüm" söyləməklə yalnız özünə çinar ömrü arzulamışdır. 3. *Çinar ömrü müdrik babaların ömrünə bənzədilir* fikri "Çinar ömrü" şeirinin məzmunu ilə səsləşir. 4. *Repressiya dövrünün sərt üzü üstüörtülü şəkildə təsvir olunur* fikri isə "Qızılgül olmayaydı" poemasına əsasən ***yanlış*** fikirdir. Əsərdə totalitar rejimin qeyri-insani siyasəti, istedadlı və yaradıcı insanların işgəncələrə məruz qalması və məhv edilməsi konkret adlar çəkilməklə nəzərə çarpdırılır. Deməli, 3 və 4-cü bəndlərdəki fikirlər cədvələ uyğundur. 5. *Müşfiqin şeirlərindən parçalar verilir* və 6. *Müəllifin xatirələri əsasında Müşfiqin daxili aləmi və xarakteri haqqında fikir formalaşır* fikirləri doğru olduğu üçün cədvələ uyğun ***deyil***.
***Doğru cavab:*** 1, 3, 4

**A variantı 75 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 79 saylı test tapşırığı**

"Kitabi-Dədə Qorqud"dakı obrazlarla bağlı uyğunluğu müəyyən edin.

1. Basat
2. Uruz

a. Valideynlərinin birgə səyi nəticəsində düşmən əsarətindən qurtulur.
b. Adının Dədə Qorqud tərəfindən qoyulması təsvir edilir.
c. Qeyri-bərabər döyüşdə düşmənə əsir düşür.
d. Qazan xanın sözündən çıxaraq onunla birlikdə düşmən qalasına hücum edir.
e. Atasının göz yaşları onu fikrindən döndərə bilmir.

A) 1 – b, d; 2 – e B) 1 – c, e; 2 – a, b
C) 1 – b, e; 2 – a, c D) 1 – a; 2 – c, d
E) 1 – a, e; 2 – b, c

***Mövzu:*** "Kitabi-Dədə Qorqud" eposu
***Sinif:*** 6, 8, 10
***İzah:*** b. *Adının Dədə Qorqud tərəfindən qoyulması təsvir edilir* və e. *Atasının göz yaşları onu fikrindən döndərə bilmir* fikirləri Basat, a. *Valideynlərinin birgə səyi nəticəsində düşmən əsarətindən qurtulur* və c. *Qeyri-bərabər döyüşdə düşmənə əsir düşür* fikirləri isə Uruz obrazını səciyyələndirir. d. *Qazan xanın sözündən çıxaraq onunla birlikdə düşmən qalasına hücum edir* fikri heç bir obraza uyğun ***deyil***.
***Doğru cavab:*** 1 – b, e; 2 – a, c

**A variantı 76 saylı test tapşırığı**
**B variantı 80 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

S. Əhmədlinin "Dərs" əsərindəki Gülzar müəllimə obrazı haqqında ***yanlış*** fikirləri müəyyən edin.

1. Şagirdlərinin dərsə gəlməsinə görə direktor ona minnətdarlıq duyur.
2. Şagirdlər qarşısında şəhidlərin qanının yerdə qalmayacağı haqqında inamlı çıxış edir.
3. Şagirdi Məqsədin tanklardan daş atılması barədə fikri ona əvvəlcə uydurma kimi görünür.
4. Əsər onun gələcək haqqında xəyalındakı düşüncələrinin əks olunması ilə bitir.
5. Məktəbdə şagirdlərinin şəhid olmuş yaxınları haqqında məlumat əldə edir.

A) 2, 5 B) 1, 5 C) 3, 4 D) 1, 3 E) 2, 4

***Mövzu:*** Sabir Əhmədli
***Sinif:*** 6
***İzah:*** *1. Şagirdlərinin dərsə gəlməsinə görə direktor ona minnətdarlıq duyur;* 3. *Şagirdi Məqsədin tanklardan daş atılması barədə fikri ona əvvəlcə uydurma kimi görünür*; 5. *Məktəbdə şagirdlərinin şəhid olmuş yaxınları haqqında məlumat əldə edir* fikirləri doğrudur.
2. *Şagirdlər qarşısında şəhidlərin qanının yerdə qalmayacağı haqqında inamlı çıxış edir* və 4. *Əsər onun gələcək haqqında xəyalındakı düşüncələrinin əks olunması ilə bitir* fikirləri ***yanlışdır***.

***Doğru cavab:*** 2, 4

**A variantı 77 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Nümunədə işlənmiş bədii təsvir və ifadə vasitələrini müəyyən edin.

*Başımdan getmişdi sevdanın qəmi,*
*Xəyalım gəzirdi bütün aləmi.*
*Bu dustaq könlümü, deyin, yenəmi*
*Çəkdiniz sorğuya, suala, gözlər?* (S. Vurğun)

A) epitet, inversiya, metonimiya, anafora
B) təşbeh, simvol, metafor, inversiya
C) metafor, təşbeh, epitet, bədii sual
D) bədii sual, təşbeh, təkrir, metonimiya
E) epitet, inversiya, metafor, bədii sual

***Mövzu:*** Bədii əsərin dili
***Sinif:*** 5-8
***İzah:*** *Başımdan getmişdi sevdanın qəmi* misrasında metafor və inversiya işlənmişdir.
*Xəyalım gəzirdi bütün aləmi* misrasında da metafor və inversiya vardır.
*Bu dustaq könlümü, deyin, yenəmi Çəkdiniz sorğuya, suala, gözlər?* misralarında epitet, metafor, bədii sual və inversiya işlənmişdir.
***Doğru cavab:*** epitet, inversiya, metafor, bədii sual

**A variantı 78 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 73 saylı test tapşırığı**
**D variantı 71 saylı test tapşırığı**

C. Cabbarlının "Oqtay Eloğlu" əsərinə aid cümlədə nöqtələrin yerinə yazıla ***bilməz***:

*Oqtayın sürgün və həbsdə olduğu müddətdə ...*

1. teatra tamaşaçı marağı artmışdır.
2. Şəkinski teatrın direktoru vəzifəsinə keçmişdir.
3. Səməd bəy mədəniyyət sahəsində məsul işdə çalışmağa başlamışdır.
4. Firəngizlə Danyar bəy boşanmışlar.
5. dayısı Oqtaya pul göndərmək üçün onun evini satmışdır.
6. qəzetlərdə Oqtayın aktyorluğunu yüksək qiymətləndirən yazılar dərc edilmişdir.

A) 2, 4, 5 B) 1, 3, 4 C) 2, 3, 4, 6
D) 2, 3, 5, 6 E) 1, 5, 6

***Mövzu:*** Cəfər Cabbarlı
***Sinif:*** 11
***İzah:*** 2. *Şəkinski teatrın direktoru vəzifəsinə keçmişdir*; 3. *Səməd bəy mədəniyyət sahəsində məsul işdə çalışmağa başlamışdır*; 5. *dayısı Oqtaya pul göndərmək üçün onun evini satmışdır* və 6. *qəzetlərdə Oqtayın aktyorluğunu yüksək qiymətləndirən yazılar dərc edilmişdir* fikirləri verilmiş cümləni tamamlaya ***bilməz.***
*1. teatra tamaşaçı marağı artmışdır* və 4. *Firəngizlə Danyar bəy boşanmışlar fikirləri* nöqtələrin yerinə yazıla bilər. Xaspoladın nitqindən məlum olur ki, Oqtay sürgündə və həbsdə olduğu müddətdə Azərbaycan teatrı tərəqqi etmişdir, artıq salonlarda onu rəngarəng çiçəklərlə bəzəyən Azərbaycan xanımları da vardır. Səməd bəyin və Sevərin nitqindən bəlli olur ki, həmin müddətdə Danyar bəy Firəngizi boşamışdır.
***Doğru cavab:*** 2, 3, 5, 6

**A variantı 79 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

M. Füzulinin "Leyli və Məcnun" əsəri ilə bağlı cədvəldəki hansı rəqəmlərin yeri dəyişdirilsə, uyğunluq gözlənilmiş olar?

| Doğrudur | Yanlışdır |
|---|---|
| 1. Zəmanəsinin əxlaq və davranış normalarına baxışı tamamilə fərqli olan Qeys cəmiyyətə müxalif mövqedə dayanır.<br>2. Leyli dövrün feodal qanun-qaydalarına təslim olmur, mənliyini, mənəvi gözəlliyini qoruyur.<br>3. Anası qızını Məcnuna bir şərtlə verməyə razı olur ki, Leyli məktəbə getməsin. | 4. Məcnunun atası oğlunun dərdini anladığı üçün onun "xəstəliyinə" çarə axtarır.<br>5. Anasının təkidindən sonra Leyli Qeysi sevdiyini ona bildirir.<br>6. İbn Səlam Leylinin fikrini öyrənmədən ona elçi göndərir. |

A) 2↔6 B) 3↔4 C) 3↔6 D) 1↔5 E) 2↔5

***Mövzu:*** Məhəmməd Füzuli
***Sinif:*** 10
***İzah:*** 3. *Anası qızını Məcnuna bir şərtlə verməyə razı olur ki, Leyli məktəbə getməsin* fikri yanlış olsa da, ***doğrudur*** sütununda, 6. *İbn Səlam Leylinin fikrini öyrənmədən ona elçi göndərir* fikri doğru olsa da, ***yanlışdır*** sütununda yer aldığı üçün bu iki fikrin yeri dəyişdirilməlidir. Təqdim olunmuş digər fikirlər müvafiq olaraq uyğun sütunlarda yerləşdirilmişdir.
***Doğru cavab:*** 3↔6

**A variantı 80 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 73 saylı test tapşırığı**

Hansı fikirlər E. Heminqueyin "Qoca və dəniz" əsərindəki qoca balıqçıya aid ***deyil***?

1. Tilovuna düşən balığı möcüzə hesab edir və ona yazığı gəlir.
2. Balıq ovunda uğur qazana bilmədiyi üçün bəzi balıqçıların qınaq hədəfinə çevrilir.
3. Ətrafında ona inanan balıqçıların olması qocaya mənəvi güc və yaşamaq həvəsi verir.
4. Sahilə gətirdiyi nəhəng skelet digər balıqçıların marağına səbəb olur.
5. Qayığının zədələnməsindən sarsılır.

A) 3, 4 B) 2, 3, 5 C) 1, 2, 3 D) 2, 4 E) 1, 4, 5

***Mövzu:*** Ernest Heminquey
***Sinif:*** 9
***İzah:*** *1. Tilovuna düşən balığı möcüzə hesab edir və ona yazığı gəlir; 4. Sahilə gətirdiyi nəhəng skelet digər balıqçıların marağına səbəb olur fikirləri* qoca balıqçı haqqında doğrudur.
2. *Balıq ovunda uğur qazana bilmədiyi üçün bəzi balıqçıların qınaq hədəfinə çevrilir* fikri ***yanlışdır***. Balıqçılar Santyaqo ilə zarafat edirlər, lakin onu qınamırlar; halına acıyırlar və bunu büruzə vermirlər. 3. *Ətrafında ona inanan balıqçıların olması qocaya mənəvi güc və yaşamaq həvəsi*

*verir* fikri ***yanlışdır***, əsərdə qocanın yanında olub ona mənəvi dəstək verən yeganə obraz onun köməkçisi olmuş oğlandır. 5. *Qayığının zədələnməsindən sarsılır* fikri də qoca obrazına aid ***deyil.*** Qayığın sükanı zədələnsə də, qoca bundan sarsılmır, onun hələ də işə yaradığını görüb sevinir, sükanı düzəltməyin asanlığını düşünərək özünə təsəlli verir.
***Doğru cavab:*** 2, 3, 5

**A variantı 81 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

Nöqtələrin yerinə yazıla biləcək fikri müəyyən edin.
*M.P. Vaqifin "Hayıf ki, yoxdur" qoşmasında ...*

A) İbrahim xanın gəlişinin yerli əhalidə yaratdığı narahatlığın epik təsviri verilir.
B) kənd və obaların vəziyyəti ilə bağlı təəssüf hissi ifadə olunur.
C) müəllif Vidadiyə müraciətlə gördüyü mənzərədən təəssüfləndiyini ifadə edir.
D) dövrün xanlarını keçmişdən ibrət almağa çağırış vardır.
E) zəmanənin şairə, sənətkara dəyər verməməsindən narazılıq vardır.

***Mövzu:*** Molla Pənah Vaqif
***Sinif:*** 8
***İzah:*** İbrahim xanın gəlişinin yerli əhalidə yaratdığı narahatlıq şeirdə ifadə olunsa da, burada epik təsvir ***yoxdur.*** Əsər lirik növdə yazılmışdır. Şeir Vidadiyə müraciətlə ***yazılmamışdır*** və əsərdə dövrün xanlarını keçmişdən ibrət almağa çağırış ***yoxdur***. Sənətkara dəyər verilməməsindən narazılıq da ifadə ***olunmamışdır***.
Doğru fikir *kənd və obaların vəziyyəti ilə bağlı təəssüf hissi ifadə olunur* bəndidir. Şairə görə, Kür qırağındakı bu gözəl məkanın gözəl obasının, yəni abadlığının olmaması təəssüf doğurur. Həmçinin çox gözəl olan qızlarının bu gözəlliyə layiq bəzəyinin, libasının olmaması, başqa sözlə, sıxıntılı kasıb həyatları da şairi təəssüfləndirir.
***Doğru cavab:*** kənd və obaların vəziyyəti ilə bağlı təəssüf hissi ifadə olunur.

**A variantı 82 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 62 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərindən verilmiş hadisələrlə bağlı hansı rəqəmlərin yeri dəyişdirilsə, ardıcıllıq bərpa olunar?

1. Şeir məclisində Seyid Hüseynin Mamayının şeirinə münasibət bildirməsi
2. Qoca knyazın Knyaz Xasayı aparmaq üçün Qarabağa gəlməsi
3. Hidayət xanın Natəvanın Mil düzünə arx çəkdirmək istəməsinə etirazı
4. İran şahzadəsinin Natəvanla görüşə gəlməsi
5. Natəvanın Seyid Hüseynlə ailə qurmaq qərarı

A) 1↔5 B) 4↔5 C) 1↔2 D) 2↔3 E) 3↔4

***Mövzu:*** İlyas Əfəndiyev
***Sinif:*** 11
***İzah:*** İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərində hadisələrin başvermə ardıcıllığı belədir: *Şeir məclisində Seyid Hüseynin Mamayının şeirinə münasibət bildirməsi* (4-cü şəkil), *Qoca knyazın Knyaz Xasayı aparmaq üçün Qarabağa gəlməsi* (6-cı şəkil), *İran şahzadəsinin Natəvanla görüşə gəlməsi* (7-ci şəklin əvvəli), *Hidayət xanın Natəvanın Mil düzünə arx çəkdirmək istəməsinə etirazı* (7-ci şəklin sonu), *Natəvanın Seyid Hüseynlə ailə qurmaq qərarı* (8-ci şəkil). Test tapşırığında verilmiş 3-cü və 4-cü fikirlər bu ardıcıllığı pozduğu üçün həmin fikirlərin yeri dəyişdirilməlidir.
***Doğru cavab:*** 3↔4

**A variantı 83 saylı test tapşırığı**
**B variantı 86 saylı test tapşırığı**
**C variantı 86 saylı test tapşırığı**
**D variantı 85 saylı test tapşırığı**

S.Ə. Şirvaninin "Guş qıl..." müxəmməsi ilə bağlı ***yanlış*** fikirləri müəyyən edin.
*Şairin fikrincə, insan:*

1. nəğmə ilə dünya qəminə hasar çəkə bilər.
2. İsa peyğəmbərin musiqi haqqında tövsiyələrinə əməl etməlidir.
3. musiqiyə diqqətlə qulaq assa, gizli sirlərə bələd olar.
4. musiqi vasitəsilə müəyyən xəstəliklərə əlac edə bilər.
5. musiqini haram sayan yalançı zahidlərin boş sözlərinə uymamalıdır.
6. musiqi alətlərindəki səsin hikmətindən agah olmalıdır.

***Mövzu:*** Seyid Əzim Şirvani
***Sinif:*** 10
***İzah:*** Müxəmməsdə oxucuya nəğmə ilə dünya qəminə hasar çəkmək tövsiyə edilir. Şairə görə, insan musiqiyə diqqətlə qulaq asacağı təqdirdə gizli sirlərə bələd ola bilər. Oxucunu musiqi alətlərindəki səsin hikmətindən agah olmağa dəvət edən müəllif musiqini haram sayan yalançı zahidlərin boş tövsiyələrinə uymamağı tövsiyə edir.
*Şairin fikrincə, insan ...* cümləsini 2. *İsa peyğəmbərin musiqi haqqında tövsiyələrinə əməl etməlidir* fikri tamamlaya ***bilməz.*** Şeirdə İsa peyğəmbərlə bağlı rəvayətə toxunulsa da, onun musiqi haqqında tövsiyəsindən söz ***açılmır***. 4. *Musiqi vasitəsilə müəyyən xəstəliklərə əlac edə bilər* fikri də cümləni tamamlaya ***bilməz,*** bu haqda əsərdə məlumat yoxdur.
***Doğru cavab:*** 2, 4

**A variantı 84 saylı test tapşırığı**
**B variantı 84 saylı test tapşırığı**
**C variantı 84 saylı test tapşırığı**
**D variantı 86 saylı test tapşırığı**

C. Məmmədquluzadənin "Anamın kitabı" əsərində surətlər və onları narahat edən əsas məsələ ilə bağlı ***uyğunsuzluqları*** müəyyən edin.

1. Səməd Vahid – kitablarının müsadirə edilməsi
2. Mirzə Zeynal – yığıncaqda yad dildə danışılması
3. Zəhrabəyim – oğlanları arasında fikir ayrılığı
4. Gülbahar – qardaşlarının bir-birilə yola getməməsi
5. Teymur bəy – məktəbdə tədrisin yarıtmaz vəziyyəti

***Mövzu:*** Cəlil Məmmədquluzadə
***Sinif:*** 11
***İzah:*** Mirzə Zeynal obrazı cəmiyyəti-xeyriyyənin iclasında rus dilində danışılmasına kəskin etirazını bildirir. Öz oğlanlarını son nəfəsinə kimi milli-mənəvi birliyə səsləyən Zəhrabəyim ananı onlar arasındakı fikir ayrılığı narahat edir.

Qardaşlarının doğru yol seçməməsi, bir-biri ilə yola getməməsi Gülbaharı narahat edən əsas məsələlərdəndir.
1. *Səməd Vahid – kitablarının müsadirə edilməsi;* 5. *Teymur bəy – məktəbdə tədrisin yarıtmaz vəziyyəti* ***uyğunsuzluq*** yaratmışdır.
***Doğru cavab:*** 1, 5

**A variantı 85 saylı test tapşırığı**
**B variantı 85 saylı test tapşırığı**
**C variantı 85 saylı test tapşırığı**
**D variantı 83 saylı test tapşırığı**

Ə. Cavadın "Səsli qız" poemasına aid hadisələrin səbəb nəticə münasibətləri ilə bağlı ***uyğunsuzluqları*** müəyyən edin.

| | Səbəb | Nəticə |
|---|---|---|
| 1. | Qalib hökmdar məğlub şahın canının amanda olduğu barədə buyruq verir. | Məğlub şah xalqını qalib hökmdara tabe olmağa çağırır. |
| 2. | Sara işğalçı şahı zəhərləyib öldürür. | Xalqın işğalçılara qarşı intiqam hissi alovlanır. |
| 3. | Varlı təbəqə və ruhanilər qalib şahı alqışlayır və ona yaltaqlanırlar. | Qalib şah varlı təbəqəyə və ruhanilərə hədiyyələr verir. |
| 4. | Düşmən şahın gəlişini az insan qarşılayır. | Düşmən şah qəzəblənir. |
| 5. | Qalib şahın vəziri hökmdarının könlünü xoş etmək istəyir. | O, sarayda öz təşəbbüsü ilə təmtəraqlı ziyafət təşkil edir. |
| 6. | Saranın ölkəsi işğalçıların istilasına məruz qalır. | Cənnət kimi ölkə məzarlığa dönür. |

***Mövzu:*** Əhməd Cavad
***Sinif:*** 11
***İzah:*** 1. *Qalib hökmdar məğlub şahın canının amanda olduğu barədə buyruq verir – Məğlub şah xalqını qalib hökmdara tabe olmağa çağırır*; 3. *Varlı təbəqə və ruhanilər qalib şahı alqışlayır və ona yaltaqlanırlar – Qalib şah varlı təbəqəyə və ruhanilərə hədiyyələr verir*; 4. *Düşmən şahın gəlişini az insan qarşılayır – Düşmən şah qəzəblənir* və 5. *Qalib şahın vəziri hökmdarının könlünü xoş etmək istəyir – O, sarayda öz təşəbbüsü ilə təmtəraqlı ziyafət təşkil edir* cümlələrində səbəb-nəticə əlaqəsi ***pozulmuşdur***. Məğlub şah xalqına heç bir çağırış etmir; Qalib şah heç kimə hədiyyə vermir; Düşmən şah qarşılanma mərasimində qəzəblənmir, hətta sevinc içində olur; Saraydakı ziyafət vəzirin deyil, qalib hökmdarın təşəbbüsü ilə keçirilir.
2 və 6-cı bəndlərdəki fikirlər isə doğrudur.
***Doğru cavab:*** 1, 3, 4, 5

**A variantı 86 saylı test tapşırığı**
**B variantı 83 saylı test tapşırığı**
**C variantı 83 saylı test tapşırığı**
**D variantı 84 saylı test tapşırığı**

Verilmiş əsərlər üçün ortaq cəhətləri müəyyən edin.
- "Peyğəmbər" (H. Cavid)
- "Tənha iydə ağacı" (İ. Əfəndiyev)
- "Fəryad" (B. Vahabzadə)

1. Dini-əfsanəvi şəxsiyyətin obrazı yaradılmışdır.
2. Süjet xəttinə malik əsərdir.
3. Təhkiyə əsasında yazılmışdır.
4. Tarixi mövzuda qələmə alınmışdır.
5. Dramatik növə aid əsərdir.

***Mövzu:*** Mövzulararası əlaqə
***Sinif:*** 11
***İzah:*** 2. *Süjet xəttinə malik əsərdir;* 3. *Tarixi mövzuda qələmə alınmışdır;* 5. *Dramatik növə aid əsərdir* fikirləri verilən əsərlər üçün ortaq cəhətlərdir.
Digər fikirlər həmin əsərləri birləşdirən ortaq cəhət kimi verilə ***bilməz***. 1. *Dini-əfsanəvi şəxsiyyətin obrazı yaradılmışdır* fikri H. Cavidin "Şeyx Sənan" faciəsinə aiddir. 3. *Təhkiyə əsasında yazılmışdır* fikri də ***yanlışdır***, çünki təhkiyə epik növə aid səciyyəvi xüsusiyyətdir.

***Doğru cavab:*** 2, 4, 5

**A variantı 87 saylı test tapşırığı**
**B variantı 87 saylı test tapşırığı**
**C variantı 87 saylı test tapşırığı**
**D variantı 87 saylı test tapşırığı**

M. İbrahimovun "Gələcək gün" əsərindəki hadisələrin ardıcıllığına əsasən uyğunluğu müəyyən edin.
*Mübaşir Məmməd Hikmət İsfahaninin farsca dediklərini kəndlilərə izah edir.*
1.
*Xırmana çatdıqda buğda dəcinin pozulduğunu görən kəndliləri heyrət bürüyür.*
2.
*Firidun məhsulun yeni bölgüsünə qarşı etirazını bildirir.*

a. Hikmət İsfahani Musa kişini oğurluqda ittiham edir.
b. Hikmət İsfahani Kürd Əhmədi özünün vəkili kimi kəndlilərə təqdim edir.
c. Firidun əmniyyələrə müqavimət göstərir.
d. Mübaşir Məmməd Hikmət İsfahanini kəndə gətirir.
e. Musa kişiyə iki yüz çubuq cəza kəsilir.

***Mövzu:*** Mirzə İbrahimov
***Sinif:*** 9
***İzah:*** Təqdim olunmuş hadisələrin ardıcıllığı belədir: *Mübaşir Məmməd Hikmət İsfahaninin farsca dediklərini kəndlilərə izah edir, Hikmət İsfahani Musa kişini oğurluqda ittiham edir, Xırmana çatdıqda buğda dəcinin pozulduğunu görən kəndliləri heyrət bürüyür,* Musa kişiyə iki yüz çubuq cəza kəsilir və *Firidun məhsulun yeni bölgüsünə qarşı etirazını bildirir.* Digər fikirlər təqdim edilmiş hadisələr ardıcıllığına daxil edilə ***bilməz.***
***Doğru cavab:*** 1- a; 2- e

***Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88 – 90 saylı tapşırıqları Cavab vərəqində yerinə yetirin.***

**Məskut hökmdarı**
*(Əsərdən parça)*

Keyxosrovun elçilərinin gəlməsi xəbəri Tomrisin xoşuna gəlməmişdi. O, narahatlığını ağsaqqallarla bölüşdü:

– Hamınıza məlumdur ki, Midiyanı diz çökdürərək böyük İran dövləti yaratmış Keyxosrov gözlərini ana yurdumuza da dikmişdir.

İçəri daxil olan elçilər başladılar gətirdikləri bahalı hədiyyələri təqdim etməyə. Elçibaşı qarşısındakı qadının gələcəkdə İran taxtının məlaikəsi olacağını düşündüyündən ilan kimi dəridən-qabıqdan çıxır, ona yarınmağa çalışırdı. O bir daha Tomrisin qarşısında ikiqat olandan sonra dedi:

– Fateh Keyxosrov padşahımız bərəkətli torpaqlı məskutlar diyarının hökmdarını özünün hərəmi görmək istəyir.

Elçibaşının yaltaq və sürüşkən baxışları Tomrisin məğrur, qətiyyətli nəzərləri ilə toqquşdu. Tomris ayağa qalxdı və istehza ilə dedi:

– Sizin Keyxosrov padşahınız məni özünə hərəm etmək, yoxsa özün söylədiyin kimi bərəkətli torpaqlarımızı ələ keçirmək istəyir?

Tomris sözünü bitirib elçiləri yola salmağı əmr etdi. Elçilər çıxandan sonra üzünü ağsaqqallar şurasının üzvlərinə tutub dedi:

– Məskut torpağı elə bu gündən qansız yağını dəf etməyə hazırlıq görməlidir.

*(Mahmud İsmayıl)*

**A variantı 88 saylı test tapşırığı**
**B variantı 88 saylı test tapşırığı**
**C variantı 88 saylı test tapşırığı**
**D variantı 88 saylı test tapşırığı**

M. İsmayılın "Məskut hökmdarı" parçası və İ. Əfəndiyevin "Xurşidbanu Natəvan" əsərindən verilmiş obrazların ortaq cəhətləri əsasında cədvəli doldurun.

| Tomris – Xurşidbanu Natəvan | Keyxosrov – Şahzadə |
|---|---|
| 1.<br><br>2. | 1.<br><br>2. |

***Mövzu:*** Mətn
***Sinif:*** 6-11
***Ehtimal edilən doğru cavab variantları:***

| *Tomris – Xurşidbanu Natəvan* | *Keyxosrov – Şahzadə* |
|---|---|
| *• Vətənpərvərdir.*<br>*• Elçilik təklifini qəbul etmir.*<br>*• Elçilik təklifinin arxasında başqa məqsəd olduğunu anlayır və s.* | *• Siyasi niyyətini həyata keçirmək üçün izdivaca girmək istəyir.*<br>*• Elçilik etməyə yaltaq adam göndərir.*<br>*• Niyyəti boşa çıxır və s.* |

**A variantı 89 saylı test tapşırığı**
**B variantı 89 saylı test tapşırığı**
**C variantı 89 saylı test tapşırığı**
**D variantı 89 saylı test tapşırığı**

M. İsmayılın "Məskut hökmdarı" parçası və N. Gəncəvinin "İskəndərnamə" əsəri əsasında cədvəli doldurun.

| *Məzmun oxşarlığı* | *Forma oxşarlığı* |
|---|---|
| 1.<br><br>2. | 1.<br><br>2. |
| | |

***Mövzu:*** Mətn
***Sinif:*** 6-11
***Ehtimal edilən doğru cavab variantları:***

| *Məzmun oxşarlığı* | *Forma oxşarlığı* |
|---|---|
| *• Tarixi mövzudadır.*<br>*• Ağıllı, qətiyyətli hökmdar obrazı yaradılıb.*<br>*• Hökmdarın ətrafında məsləhətləşə bildiyi müdrik insanlar var və s.* | *• Təhkiyə və təsvirdən istifadə edilib..*<br>*• Süjet xəttinə malikdir.*<br>*• Epik əsərdir və s.* |

**A variantı 90 saylı test tapşırığı**
**B variantı 90 saylı test tapşırığı**
**C variantı 90 saylı test tapşırığı**
**D variantı 90 saylı test tapşırığı**

M. İsmayılın əsərindən verilmiş parçaya əsasən cədvəli doldurun.

| *Fərqli bədii təsvir və ifadə vasitələri* | *Parçadan nümunə* |
|---|---|
| ***Bədii təsvir vasitələri:*** | |
| 1. | |
| 2. | |
| ***Bədii ifadə vasitələri:*** | |
| 1. | |
| 2. | |

***Mövzu:*** Mətn
***Sinif:*** 6-11
***Ehtimal edilən doğru cavab variantları:***

| *Fərqli bədii təsvir və ifadə vasitələri* | *Parçadan nümunə* |
|---|---|
| ***Bədii təsvir vasitələri:*** | |
| *metonimiya* | *- Midiyanı diz çökdürərək;*<br>*- Məskut torpağı elə bu gündən qansız yağını dəf etməyə hazırlıq görməlidir.* |

| | |
|---|---|
| *epitet* | *- Keyxosrov gözlərini ana yurdumuza da dikmişdir.*<br>*- Məskut torpağı elə bu gündən qansız yağını dəf etməyə hazırlıq görməlidir.* |
| *təşbeh* | *- Elçibaşı ... ilan kimi dəridən-qabıqdan çıxır ... .* |
| ***Bədii ifadə vasitələri:*** | |
| *inversiya* | *- İçəri daxil olan elçilər başladılar gətirdikləri bahalı hədiyyələri təqdim etməyə.* |
| *bədii təzad* | *Elçibaşının yaltaq və sürüşkən baxışları Tomrisin məğrur, qətiyyətli nəzərləri ilə toqquşdu.* |
| *bədii sual* | *... yoxsa özün söylədiyin kimi bərəkətli torpaqlarımızı ələ keçirmək istəyir?* |

## Coğrafiya

**A variantı 61 saylı test tapşırığı**
**B variantı 74 saylı test tapşırığı**
**C variantı 76 saylı test tapşırığı**
**D variantı 82 saylı test tapşırığı**

Müvafiq olaraq suvarmada, əsasən, yayda (I) və qışda (II) istifadə olunan çaylar:

A) I – Yenisey, Lena; II – Volqa, Dnepr
B) I – Mekonq, İravadi; II – Dəclə, Yukon
C) I – Xuanxe, Yantszı; II – Missisipi, Peçora
D) I – Ob, Niger; II – Makkenzi, Kolıma
E) I – Po, Fərat; II – Qanq, Mekonq

***Mövzu:*** Quru suları və onun təsərrüfatda rolu
***Sinif:*** 9, 10
***İzah:*** Yay aylarında suvarma əsasən yayı quraq keçən ərazilərdə aparılır. Qış aylarında isə suvarma əsasən qışın quraq keçdiyi ərazilərdə aparılır. Po çayı Aralıq dənizi iqlim vilayətində yerləşən İtaliya ərazisində Padan ovalığından keçir. Fərat çayı isə Türkiyə ərazisindən mənbəyini götürərək Mesopotamiya ovalığı boyunca axır. Hər iki çayın axdığı ərazilərdə yay ayları quraq keçir, əkinçilik əsasən suvarma şəraitində aparılır. Qanq və Mekonq çayları subekvatorial iqlim qurşağından axır və bu ərazilərdə yay ayları yağıntılı keçsə də, qış ayları isti və quraq olur. Bu səbəbdən burada qış aylarında əkinçilik suvarma şəraitində aparılır. Digər bəndlərdə Yukon, Peçora, Volqa, Dnepr və Kolıma çaylarının keçdiyi ərazilərdə qış ayları soyuq keçdiyi üçün bu fəsildə əkinçilik olmur.
***Doğru cavab:*** I – Po, Fərat; II – Qanq, Mekonq

**A variantı 62 saylı test tapşırığı**
**B variantı 76 saylı test tapşırığı**
**C variantı 82 saylı test tapşırığı**
**D variantı 80 saylı test tapşırığı**

Meridian üzrə ekvatordan 0°-lik azimutla 8769 km hərəkət etsək çatdığımız məntəqədən cənub tropik xəttinə qədər olan ən qısa məsafəni hesablayın (nəzərə alın ki, 1°-lik meridian qövsünün uzunluğu 111 km-dir).

A) 6660,6 km B) 4717,5 km C) 8769,6 km
D) 12379,5 km E) 11377,5 km

***Mövzu:*** Kartoqrafik təsvirlər
***Sinif:*** 7, 10
***İzah:*** 8769:111=79°
79°+23,5°=102,5°
102,5° x111=11377,5 km
***Doğru cavab:*** 11377,5 km

**A variantı 63 saylı test tapşırığı**
**B variantı 73 saylı test tapşırığı**
**C variantı 65 saylı test tapşırığı**
**D variantı 61 saylı test tapşırığı**

Hündürlük artanda atmosfer təzyiqinin azalmasının əsas səbəbi:

A) buludluluğun artması
B) havada su buxarının artması
C) havada mikroorqanizmlərin azalması
D) havanın şəffaflığının artması
E) havanın sıxlığının azalması

***Mövzu:*** Atmosfer, Yerin hava təbəqəsi
***Sinif:*** 7
***İzah:*** Atmosferdə hündürlük artdıqca atmosfer təzyiqinin azalmasına əsas səbəb havanın sıxlığının azalmasıdır.
***Doğru cavab:*** havanın sıxlığının azalması

**A variantı 64 saylı test tapşırığı**
**B variantı 71 saylı test tapşırığı**
**C variantı 72 saylı test tapşırığı**
**D variantı 74 saylı test tapşırığı**

Üzvü aşınmanın zəif getdiyi məntəqələri müəyyən edin.




A) 3, 4, 5, 7 B) 1, 5, 6, 8 C) 2, 3, 7, 8
D) 1, 4, 5, 6 E) 2, 4, 7, 8

***Mövzu:*** Azərbaycan Respublikasının torpaq, bitki örtüyü və heyvanat aləmi, landşaft örtüyü
***Sinif:*** 8
***İzah:*** Xəritə-sxemdə təsvir olunmuş məntəqələrdən 1,4, 5 və 6 məntəqələri yarımsəhra və quru çöl iqlim tipinin hakim olduğu ərazilərdə yerləşdikləri üçün burada üzvi aşınma zəif gedir.
***Doğru cavab:*** 1, 4, 5, 6

**A variantı 65 saylı test tapşırığı**
**B variantı 66 saylı test tapşırığı**
**C variantı 68 saylı test tapşırığı**
**D variantı 64 saylı test tapşırığı**

A iqtisadi rayonunun relyefi Kürboyu düzənliklərdən, yüksəkliklərdən və dağlardan ibarətdir. Bu rayonda qızıl,

mis, əhəngdaşı, Daşsalahlı bentonit gili, Ağdağ seolit yataqları vardır.
A iqtisadi rayonuna aid ***olmayan*** xüsusiyyətləri müəyyən edin.
1. Üzümçülük, kartofçuluq, taxılçılıq və heyvandarlıq inkişaf etmişdir.
2. Tərkibinə daxil olan bütün inzibati rayonlar xarici ölkə ilə həmsərhəddir.
3. Rayon ərazisindən Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri keçir.
4. Enerjiyə olan tələbatı Arpaçay SES-i ilə təmin olunur.
5. Kənd təsərrüfatı yalnız suvarma şəraitində mümkündür.
6. Bir iqtisadi rayonla həmsərhəddir.

A) 1, 3, 6 B) 4, 5, 6 C) 1, 2, 3
D) 2, 4, 5 E) 2, 3, 4

***Mövzu:*** Azərbaycan Respublikasının iqtisadi rayonları
***Sinif:*** 11
***İzah:*** Mətndə verilən əlamətlər Qazax-Tovuz iqtisadi rayonuna aiddir. Bu rayonda üzümçülük, kartofçuluq, taxılçılıq və heyvandarlıq inkişaf etmişdir. Rayon ərazisindən Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft kəmərləri keçir və yalnız Gəncə-Daşkəsən iqtisadi rayonu ilə həmsərhəddir. Bu iqtisadi rayonun tərkibinə daxil olan inzibati rayonlardan biri –Şəmkir inzibati rayonu xarici ölkə ilə həmsərhəd deyil. Kənd təsərrüfatı həm suvarma, həm də dəmyə şəraitində mümkündür. Arpaçay SES-i Naxçıvan iqtisadi rayonunda yerləşdiyi üçün Qazax-Tovuz iqtsiadi rayonunda enerji olan tələbatı ödəmir.
***Doğru cavab:*** 2, 4, 5

**A variantı 66 saylı test tapşırığı**
**B variantı 65 saylı test tapşırığı**
**C variantı 69 saylı test tapşırığı**
**D variantı 62 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.
I. Aral dənizinin qurumasının səbəbi
II. Aral dənizinin qurumasının nəticəsi
1. Litosfer tavalarının hərəkəti
2. Duzlu toz fırtınalarının torpağı yararsız hala salması
3. Suvarmaya tələbatın artması
4. Səhra landşaftının sahəsinin azalması
5. Ona tökülən çaylarda su sərfinin artması

A) I – 3; II – 2 B) I – 1; II – 5 C) I – 4; II – 5
D) I – 4; II – 2 E) I – 3; II – 1

***Mövzu:*** Dünyanın qlobal problemləri. Ekoloji mühit və onun mühafizəsi
***Sinif:*** 6
***İzah:*** Aral dənizinin qurumasına əsas səbəb ona tökülən və əsas qida mənbəyi olan Amudərya və Sırdərya çaylarından suvarmada həddindən artıq istifadə olunmasıdır. Aral dənizinin quruması nəticəsində torpaqda qalan duz hissəcikləri güclü küləklər nəticəsində ətrafa yayılıb torpağı yararsız hala salır.
***Doğru cavab:*** I – 3; II – 2

**A variantı 67 saylı test tapşırığı**
**B variantı 78 saylı test tapşırığı**
**C variantı 81 saylı test tapşırığı**
**D variantı 77 saylı test tapşırığı**

Diaqramda, Azərbaycanda yayılan iqlim tiplərinin faizlə nisbətinin təqribi bölgüsü verilib. Bu iqlim tiplərinə aid olan düzgün fikirləri qruplaşdırın.




a. Şollar düzü üçün səciyyəvidir.
b. Orta Araz təbii vilayətində rast gəlinmir.
c. Lənkəran ovalığı, Qanıx-Əyriçay çökəkliyində yayılıb.
d. Pambıq əkinlərinin yayıldığı ərazilər üçün səciyyəvidir.
e. Respublikamızın yüksək dağlıq hissələrində yayılıb.

A) 1 – e; 2 – a, b; 3 – c, d B) 1 – a, d; 2 – b; 3 – c
C) 1 – a, d; 2 – b, c; 3 – e D) 1 – b; 2 – c, d; 3 – a, e
E) 1 – b, d; 2 – a; 3 – c, e

***Mövzu:*** Azərbaycan Respublikasının iqlimi
***Sinif:*** 7, 10
***İzah:*** Yarımsəhra və quru çöl iqlim tipi ölkəmizdə 50%-ə yaxın, mülayim isti iqlim 30%-ə yaxın, soyuq və dağ tundra iqlim tipləri isə birlikdə 20 %-ə yaxın ərazilərdə müşahidə olunur. Yarımsəhra quru çöl iqlim tipinin hakim olduğu ərzilərdə pambıq əkinləri geniş yayılıb və bu iqlim tipi Şollar düzü üçün də səciyyəvidir. Mülayim isti iqlim tipi Lənkəran ovalığı, Qanıx-Əyriçay çökəkliyində yayılsa da, Orta Araz təbii vilayətində rast gəlinmir. Soyuq və dağ tundra iqlim tipi respublikamızın yüksək dağlıq hissələrində yayılıb
***Doğru cavab:*** 1 – a, d; 2 – b, c; 3 – e

**A variantı 68 saylı test tapşırığı**
**B variantı 67 saylı test tapşırığı**
**C variantı 61 saylı test tapşırığı**
**D variantı 72 saylı test tapşırığı**

Eyler-Venn diaqramına əsasən uyğun bəndləri müəyyən edin.




1. Rütubətlilik əmsalı vahiddən böyükdür.
2. Aqroiqlim ehtiyatları ilə zəif təmin olunmuşdur.
3. Əsasən, həmişəyaşıl ağaclardan ibarətdir.
4. Ərazisində fəsillər aydın müşahidə edilmir.
5. Günəşin zenitdə olmadığı ərazilərdə yayılıb.
6. Əsas iqlim qurşağında yerləşir.
7. Kimyəvi və üzvi aşınma intensivdir.

A) I – 1, 4; II – 5, 6; III – 3; IV – 2, 7
B) I – 4; II – 3, 7; III – 2, 5; IV – 1, 6
C) I – 6, 7; II – 3, 4; III – 2; IV – 1, 5
D) I – 7; II – 3, 5; III – 1, 6; IV – 2, 4
E) I – 2, 4; II – 1, 3; III – 5, 7; IV – 6

***Mövzu:*** Biosfer, coğrafi təbəqə, təbii zonalar, onlardan istifadə
***Sinif:*** 8
***İzah:***

1. Bu təbii zonaların hər birində yağıntıların miqdarı buxarlanma qabiliyyətindən çox olduğu üçün rütubətlənmə əmsalı vahiddən böyükdür.
2. İynəyarpaqlı meşələr və qütb səhraları qütbə yaxın enliklərdə yerləşdikləri üçün aqroiqlim ehtiyatları ilə zəif təmin olunmuşdur.
3. Ekvatorial meşələr və iynəyarpaqlı meşələr həmişəyaşıl ağaclardan ibarətdir.
4. Ekvatorial meşələr ekvatorial iqlim qurşağında, qütb səhraları arktik iqlim qurşağında yerləşdikləri üçün ərazilərində fəsillər aydın müşahidə edilmir.
5. Qütb səhraları qütb iqlim qurşağında, iynəyarpaqlı meşələr isə mülayim iqlim qurşağında yerləşdiyi üçün burada Günəş zenitdə olmur.
6. Ekvatorial meşələr ekvatorial iqlim qurşağında, qütb səhraları qütb iqlim qurşağında, iynəyarpaqlı meşələr isə mülayim iqlim qurşağında yerləşir və bunlar əsas iqlim qurşaqlarına aiddir.
7. Ekvatorial və iynəyarpaqlı meşələr rütubətli ərazi olduğu üçün kimyəvi, canlılarla zəngin olduğu üçün isə üzvi aşınmaya məruz qalır.

***Doğru cavab:*** I – 4; II – 3, 7; III – 2, 5; IV – 1, 6

**A variantı 69 saylı test tapşırığı**
**B variantı 70 saylı test tapşırığı**
**C variantı 64 saylı test tapşırığı**
**D variantı 65 saylı test tapşırığı**

Doğru fikirləri müəyyən edin.

1. Koreya Respublikası, İsrail və Sinqapur inkişaf etmiş ölkələrdir.
2. Braziliya ən iri kömür ixracatçılarından biridir.
3. Polimer və üzvi sintez kimyası İran körfəzi ölkələrində inkişaf etmişdir.
4. Qvineya və Avstraliya boksit idxalına görə fərqlənir.
5. Cənub-Şərqi Asiya ölkələri ASEAN təşkilatının tərkibinə daxildir.

A) 1, 3, 4 B) 2, 4, 5 C) 1, 3, 5
D) 2, 3, 4 E) 1, 2, 5

***Mövzu:*** Dünya iqtisadiyyatının ümumi coğrafi səciyyəsi
***Sinif:*** 10, 11
***İzah:*** Koreya Respublikası, İsrail və Sinqapur inkişaf etmiş ölkələrdir. Polimer və üzvi sintez kimyası İran körfəzi ölkələrində inkişaf etmişdir. Cənub-Şərqi Asiya ölkələri ASEAN təşkilatının tərkibinə daxildir. Braziliya kömür ixracatı ilə fərqlənən ölkə deyil. Qvineya və Avstraliya boksit idxalına görə deyil, ixracına görə fərqlənir.
***Doğru cavab:*** 1, 3, 5

**A variantı 70 saylı test tapşırığı**
**B variantı 68 saylı test tapşırığı**
**C variantı 70 saylı test tapşırığı**
**D variantı 81 saylı test tapşırığı**

Şimal yarımkürəsində tropik işıqlanma qurşağında yerləşən M məntəqəsində günorta vaxtı günəş şüalarının maksimum və minimum düşmə bucaqları arasındakı fərq 33,5° olarsa, bu məntəqə hansı coğrafi enlikdədir?

A) 23,5° B) 17° C) 33,5° D) 10° E) 15°

***Mövzu:*** Yer Günəş sistemində
***Sinif:*** 8
***İzah:*** Tropik işıqlanma qurşağında yerləşən ərazilərdə Günəş zenitdə olur. Günəşin zenitdə olduğu bütün enliklərdə günəş şüalarının maksimum düşmə bucağı 90° - dir. Maksimum bucaq ilə minimum bucaq(x) arasındakı fərq 33,5°-dir.
90- x=33,5°
x =56,5°(minimum bucaq)
M məntəqəsi şimal yarımkürəsində yerləşdiyi üçün burada günəş şüalarının minimum düşmə bucağı qış gündönümü zamanı Günəş cənub tropikində (23,5° c.e) zenitdə olduqda müşahidə olunur və
90°-23,5°=66,5°
66,5°-56,5°=10° (coğrafi enlik)
***Doğru cavab:*** 10°

**A variantı 71 saylı test tapşırığı**
**B variantı 63 saylı test tapşırığı**
**C variantı 79 saylı test tapşırığı**
**D variantı 68 saylı test tapşırığı**

*A-B* xətti üzrə relyef profilinə uyğun olan diaqramı müəyyən edin (nəzərə alın ki, kəsmə yüksəklik 5 m-dir).




A)



B)



C)


D) 


E) 


***Mövzu:*** Kartoqrafik təsvirlər
***Sinif:*** 7, 9, 11
***İzah:*** Xəritə-sxemdə təsvir olunmuş relyefdə kəsmə yüksəklik 5 metrdir. A nöqtəsi mütləq hündürlüyü 100 metr olan horizontaldan 10 metr aşağıda yerləşir. AB xətti üzrə A nöqtəsindən başlayıb B nöqtəsinə doğru baxsaq xətt 90 metrdə başlayıb təpənin ən hündür hissəsindən -120 metrdən daha yüksək olan nöqtədən keçir və bu hündürlükdən sonra B nöqtəsinə doğru hündürlük azalır, 105 metr mütləq hündürlüyü olan horizontala çatır.

***Doğru cavab:*** 


**A variantı 72 saylı test tapşırığı**
**B variantı 61 saylı test tapşırığı**
**C variantı 74 saylı test tapşırığı**
**D variantı 70 saylı test tapşırığı**

Xəritə-sxemdə hərflərlə göstərilmiş ölkələrin əhalisinə aid olan ümumi xüsusiyyətlər:
1. Təbii artımın I tipi xarakterikdir
2. Əhalinin yaş tərkibində uşaqların sayı daha çoxdur
3. İqtisadi fəal əhalinin əsas hissəsi kənd təsərrüfatında çalışır
4. Əsas emiqrasiya mərkəzləridir
5. Urbanizasiya səviyyəsi yüksəkdir
6. Əhalinin əsas hissəsi Hind-Avropa dil ailəsinə aiddir




A) 2, 3, 4 B) 1, 5, 6 C) 1, 3, 5
D) 2, 4, 6 E) 1, 2, 6

***Mövzu:*** Dünya əhalisi
***Sinif:*** 8, 10, 11
***İzah:*** Xəritə-sxemdə müvafiq olaraq (a) ABŞ, (b) Fransa, (c) Avstraliya göstərilmişdir. Bu ölkələr İEÖ qrupuna daxil olduğu üçün burada təbii artımın I tipi xarakterikdir və urbanizasiya səviyyəsi yüksək olur. Hər üç ölkənin əhalisinin əsas hissəsi Hind-Avropa dil ailəsinə aiddir. İEÖ-də əhalinin yaş tərkibində uşaqlar deyil, orta yaşlıların sayı daha üstündür və iqtisadi cəhətdən fəal əhali əsasən xidmət sahələrində çalışır. Bu ölkələrdə iqtisadi və sosial vəziyyət yüksək səviyyədə olduğu üçün dünyanın əsas emiqrasiya mərkəzləri hesab olunmur.
***Doğru cavab:*** 1, 5, 6

**A variantı 73 saylı test tapşırığı**
**B variantı 79 saylı test tapşırığı**
**C variantı 80 saylı test tapşırığı**
**D variantı 78 saylı test tapşırığı**

Metallurgiya kombinatları əsasən yerli (1) və idxal edilən (2) daş kömür və dəmir filizi ilə işləyən ölkələr:
